## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA ELMLƏR AKADEMİYASININ PREZİDENTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyev Azərbaycan Respublikasının Prezidenti ilə bu görüşün onun üçün və ümumilikdə...



Bax səh. 3

## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA BAKININ KÜRDƏXANI QƏSƏBƏSİNDƏ OLUB

Mayın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində olublar. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 22 may 2019-cu il, çərşənbə / № 092 (5467). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Bakı şəhərinin nəqliyyat infrastrukturu kompleks şəkildə yenilənir



*Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib*



## Prezidentin iş günü

Belçikalıların Kralı Filip Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

◆ ❖ ◆

Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Migel Dias-Kanel Bermudes Prezident İlham Əliyevə Respublika Günü münasibətilə təbrik məktubu göndərib.

## Azərbaycanın dinamik daxili və xarici siyasəti ölkənin milli maraqlarına əsaslanır

Son 15 ildə Azərbaycan ölkənin potensialına və milli maraqlarına əsaslanan, eyni zamanda, qlobal miqyasda meydana çıxan çağırışlarla adekvatlıq təşkil edən, gözlənilən bütün riskləri önləməyə hesablanan məqsədyönlü praqmatik siyasət həyata keçirib. Nəticədə isə ölkəmizin bütün dünyada böyük maraqla izlənilən hər cəhətdən nümunəvi inkişaf modeli formalaşıb. Bütövlükdə respublikamızın daxili və xarici siyasəti kifayət qədər dinamik və intensiv xarakter daşıyır. Bir-birini tamamlayan bu siyasət ölkənin iqtisadi-maliyyə imkanlarının genişlənməsinə və bu əsasda insanların həyat səviyyəsinin daha da yüksəlməsinə, eləcə də Azərbaycanın beynəlxalq miqyasda mövqelərinin möhkəmlənməsinə hesablanıb...

Bax səh. 4

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltif və mükafatların təqdimatı olub

Mayın 21-də Azərbaycan Respublikası medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının və Azərbaycan Respublikası Prezidentinin mükafatının təqdimat mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin...



Bax səh. 6



## AMEA İLƏ RUSİYA ELMLƏR AKADEMİYASI ARASINDA ELMİ-TEXNİKİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANIB

Mayın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə ölkəmizdə səfərdə olan Rusiya Elmlər Akademiyasının (REA) prezidenti, akademik Aleksandr Sergeyevin...

Bax səh. 3

## GƏNCƏDƏ “AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI” VƏ “TERRORÇULUĞA QARŞI MÜBARİZƏDƏ İCTİMAİYYƏTİN ROLU” MÖVZULARINDA KONFRANS KEÇİRİLİB

Mayın 21-də Gəncədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Beynəlxalq Antiterror Təlim Mərkəzinin təşkilatçılığı ilə “Azərbaycançılıq ideologiyası” və “Terrorçuluğa qarşı mübarizədə ictimaiyyətin rolu” mövzularında konfrans keçirilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, DTX-nin məsul əməkdaşlarının, Gəncə Şəhər İcra Hakimiyyətinin, idarə, təşkilat və müəssisələrin təmsilçilərinin, həmçinin geniş ictimaiyyətin nümayəndələrinin iştirakı ilə keçirilən tədbir Heydər Əliyev Mərkəzində təşkil edilib. Əvvəlcə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini yad edərək, abidəsi önünə gül dəstələri düzüblər. Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsi də yad olunub. Dövlət Himninin səsləndirilməsi ilə...

Bax səh. 6



## TOVUZDA “MÜASİR ÇAĞIRIŞLAR: DİNİ DURUM VƏ VƏZİFƏLƏR” MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİR

Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atıb. Bu fikir mayın 21-də Azərbaycan Respublikasının...

Bax səh. 5

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi qərb bölgəsində vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər. Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 21-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Tovuz, sədrin birinci müavini Səyyad Salahlı Ağstafa, sədr müavini Gündüz İsmayılov isə Gədəbəy rayonunda vətəndaşların qəbulunu keçiriblər. Komitədən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin Tovuz şəhərində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb...

Bax səh. 5

### Bakıda “Dövlət Borcunun İdarə Edilməsi üzrə Asiya Regional Forumu” keçirilir

Mayın 21-də Bakıda Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Asiya İnkişaf Bankının (ADB) birgə təşkilatçılığı ilə “Dövlət Borcunun İdarə Edilməsi üzrə...



Bax səh. 5

### Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Fransada silsilə görüşlər keçirib

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Fransa Respublikasına səfəri çərçivəsində...



Bax səh. 3

### “Azərbaycana baxış: siyasi maraqlar media müstəvisində” mövzusunda dəyirmi masa keçirilib

Mayın 21-də Bakıda “Azərbaycana baxış: siyasi maraqlar media müstəvisində” mövzusunda dəyirmi masa keçirilib. AZƏRTAC xəbər verir ki...



Bax səh. 6

### Milli Azərbaycan Tarixi Muzeyində Sara Tağıyevanın 120 illiyi qeyd olunub

Mayın 21-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində (MATM) məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin qızı Sara Tağıyevanın anadan olmasının 120 illiyinə həsr edilən...



Bax səh. 6

# Bakı şəhərinin nəqliyyat infrastrukturu kompleks şəkildə yenilənir

## *Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib*

Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə qəsəbə sakinləri ilə görüşüb söhbət edib.

Prezident İlham Əliyevi salamlayan Sabunçu qəsəbəsinin sakini Arazxanım Mərdanova deyib: **"Bizim Sabunçu qəsəbəsinə xoş gəlmisiniz. Bu gün Sizin sayənizdə burada möhtəşəm dəmir yolu vağzalı açılır. Siz bunları xalqımızı, övladlarımızı düşünüb edirsiniz. Allah Sizə cansağlığı versin. Siz Ulu Öndərimizin davamçısısınız. Biz Sizə güvənirik, Azərbaycanımız Sizə güvənir. Siz bizim böyük dayağımızsınız. Sakinlər adından Sizə "Sağ olun!" deyirik".**









Prezident İlham Əliyev deyib: **"Çox sağ olun, təşəkkür edirəm. Mən də çox şadam ki, bu gün bu gözəl vağzal kompleksi istifadəyə verilir. Çox gözəl binadır. Bu binanın tikintisi bir daha onu göstərir ki, hər bir qəsəbənin problemləri diqqət mərkəzindədir. Çalışırıq ki, bütün qəsəbələrdə quruculuq-abadlıq işləri aparılsın, vətəndaşlar üçün yeni imkanlar yaradılsın. Dünyanın ən qabaqcıl şirkətlərindən birinin istehsalı olan yeni vaqonlar alınıb və bundan sonra gediş-gəliş çox rahat olacaq. Yolboyu Bakıxanov, Keşlə dayanacaqları da yenidən qurulub. Bu vağzal kompleksi də göz oxşayır. Şadam ki, bu gün belə bir gözəl tədbiri biz birlikdə qeyd edirik. Bu, bir daha onu göstərir ki, şəhər nəqliyyatına çox böyük diqqət yetirilir. İndi avtobuslar alınıb, bu il əlavə 300 avtobus alınacaq. Metro tikintisi gedir, yeni vaqonlar alınır, yollar çəkilir, dəmir yolu vağzalları, yəni, nəqliyyat infrastrukturumuz kompleks şəkildə yenilənir. Sizdə işlər necədir?".**





**Sakinlər:** Sağ olun, minnətdarıq.

**Prezident İlham Əliyev:** Həllini gözləyən, bu gün hələ həll olunmamış hansı məsələlər var?

**Sakin Əkbər Hüseynov:** Adi bir qəsəbədə belə gözəl vağzal inşa olunub. Bu, çox gözəldir. Bu qəsəbənin sakiniyəm, 70 ilə yaxındır ki, burada yaşayıram. Ancaq nə vaxtsa belə bir möhtəşəm binanın inşa olunacağı heç ağlımıza da gəlməzdi. Hər bir açılışı televizordan görəndə fərəhlənirdik. Bu gün özüm bu açılışda iştirak edirəm və bunu əyani surətdə görürəm. Çox sevinirəm. Əlbəttə ki, bunlar hamısı xalqın rifah halının yaxşılaşdırılması üçün Sizin gördüyünüz işlərdir. Sizə təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun. Demək olar ki, hər gün ölkəmizdə - Bakıda, bütün rayonlarda, Bakıətrafı qəsəbələrdə, hər yerdə hansısa obyektin açılışı olur, istər sosial obyekt, istər infrastruktur obyekti. İndi yol çəkilişi sürətlə gedir, Sabunçu rayonunun da yollarının təmiri ilə bağlı işlər görülür. Yəni, çalışırıq, maksimum nə mümkündürsə edək ki, insanlar daha da yaxşı yaşasınlar, maddi rifah artsın, dolanışıq daha yaxşı olsun. Ona görə bu istiqamətdə bundan sonra da addımlar atılacaq. Pensiyaların, əməkhaqlarının, müavinətlərin artırılması gündəlikdə duran məsələlərdən biridir. Belə gözəl binalar vətəndaşlara xidmət edəcək.

**Sakin Əkbər Hüseynov:** Əlbəttə, hamısı Sizin sayənizdədir. Bu dəmir yolunun fəaliyyətə başlaması avtobusların yükünü xeyli azaldacaq.

**Prezident İlham Əliyev:** Əlbəttə, vaxt baxımından da çox sərfəli olacaq.

**Sakinlər:** Təşəkkür edirik, sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

* * *

Sonra Prezident İlham Əliyev yaxınlıqdakı mağazaya gəlib, alıcılar və satıcılar ilə söhbət edib.

**Qarabağ müharibəsi əlili Məzahir Orucov:** Xoş gəlmisiniz, cənab Prezident. Sizinlə fəxr edirik. Allah Sizi qorusun.

**Şəhid anası Səyyarə Nəzərova:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun, necəsiniz?

**Səyyarə Nəzərova:** Çox sağ olun, Allah Sizdən, dövlətimizdən razı olsun. Siz çox gözəl insansınız. Bizim dövlətimiz çox yaxşı dövlətdir. Çünki hər yerdə əmin-amanlıqdır, hamı qayğımızı çəkir, çox sağ olun.

**Məzahir Orucov:** Cənab Prezident, biz Qarabağ qaziləri Sizinlə fəxr edirik. Allah Sizi, dövlətimizi qorusun.

**Prezident İlham Əliyev:** Ticarət necə gedir?

**Səyyarə Nəzərova:** Çox yaxşı, şükür Allaha, hər günümüzə min şükür.

**Prezident İlham Əliyev:** Məhsulların neçə faizi yerli mallardır?

**Satıcı:** Demək olar ki, 90 faizi.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident. Sizinlə fəxr edirik. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.





* * *

Prezident İlham Əliyevin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən, Bakı sərnişin-Sabunçu dəmir yolu yenidən inşa olunub. Layihənin tərkib hissəsi olan Sabunçu dəmir yolu vağzalı tamamilə yenidən qurulub. İnşasına ötən ilin iyunundan başlanılan üçmərtəbəli binanın ümumi sahəsi 4,1 min kvadratmetrdir. Artıq Sabunçu dəmir yolu vağzalı kompleksi sərnişinlərə xidmət göstərməyə tam hazırdır.

Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalının rəmzi açılışını bildirən lenti kəsib.

Sonra xatirə şəkli çəkdirilib.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov dövlətimizin başçısına layihə üzrə görülən və görüləcək işlər barədə ətraflı məlumat verib.

Qeyd edilib ki, layihəyə əsasən Bakı dairəvi dəmir yolu xətti üzrə görülən işlərin davamı olaraq Məmmədli kəndində uzunluğu 17 metr olan yeraltı avtomobil keçidi, həmçinin Kürdəxanı kəndində uzunluqları 22 metr olan yeraltı avtomobil və yerüstü piyada keçidləri tikilib.

Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalında yaradılan şəraitlə tanış olub.

Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet satışı kassaları, məlumat bürosu, server otağı, əşyaların saxlanması kamerası yerləşir. Hər üç mərtəbədə ticarət mərkəzlərinin yaxın günlərdə istifadəyə verilməsi planlaşdırılır. Burada müasir dizaynla tərtib olunan istirahət guşələri sərnişinlərin rahatlığını təmin edəcək. İşçilərin əmək fəaliyyəti üçün bütün lazımi imkanın olduğu binada, eyni zamanda, hərəkət qabiliyyəti məhdud olan insanlar üçün də xüsusi şərait yaradılıb. Vağzalda müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemləri, əlavə olaraq eskalator, lift, 17 turniket quraşdırılıb, iki piyada alt keçidi inşa edilib. Layihə çərçivəsində Sabunçu vağzalında iki yeni platforma salınıb, işıqlandırma dirəkləri və müasir sərnişin dayanacaqları quraşdırılıb. Stansiyadakı üç dəmir yolu xətti tamamilə yenidən qurulub. Sabunçu vağzalında dəmir yolu nəqliyyatı vasitələrinin müasirləşdirilməsinə müsbət təsirini göstərib. Bakı Sərnişin-Sabunçu dəmir yolu xəttinin yenilənməsi də bu işlərin davamıdır.

Dövlətimizin başçısı Bakıxanov dayanacağında yaradılan şəraitlə tanış olub.

Dayanacağın ümumi sahəsi 7 min kvadratmetrdir. Burada iki turniket binası və platforma tikilib. Bundan başqa, 16 turniket, uzunluğu 30 metr, eni 3,9 metr olan yerüstü piyada keçidi inşa edilib. Bakıxanov dayanacağının ərazisində yaşıllıqlar salınıb, avtomobillər üçün dayanacaq yaradılıb. Müasir işıqlandırma sistemi ilə təchiz olunmuş platformalarda sərnişinlərin rahatlığı üçün hər cür şərait var.

Bildirilib ki, Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzərində yerləşən Koroğlu dayanacağının ümumi sahəsi isə 15 min kvadratmetrdir. Dayanacaqda iki turniket binası inşa edilib, 17 turniket, müasir işıqlandırma dirəkləri, oturacaqlar quraşdırılıb.

Sonra Prezident İlham Əliyev Keşlə dayanacağında yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, ümumi sahəsi 10 min kvadratmetr olan Keşlə dayanacağında da iki turniket binası tikilib. Bundan başqa, dayanacaqda iki platforma, 10 turniket, uzunluğu 39 metr, eni isə 2,5 metr olan yeraltı piyada keçidi mövcuddur. Ətrafda yaşıllıq və abadlıq işləri görülüb, avtomobillər üçün dayanacaq yaradılıb. Platformada müasir işıqlandırma və yolu polisinin üçmərtəbəli binası da tikilib və zəruri avadanlıqla təchiz olunub.



Sonra Prezident İlham Əliyev Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olmaq üçün qatarla Bakı Dəmir Yolu Vağzalına yola düşüb.

Qeyd edilib ki, bu marşrut üzrə dəmir yolu xəttinin uzunluğu bir istiqamət üzrə 13,5 kilometrdir. Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzərindəki Bakıxanov, Koroğlu, Keşlə və Nərimanov dayanacaqları tamamilə yenidən qurulub.

Bu gün Azərbaycan nəqliyyatının ən böyük sahələrindən biri dəmir yolu sektorudur. Azərbaycanın nəqliyyat sisteminin əsas sahələrindən olan dəmir yolu nəqliyyatı indi özünün sürətli inkişaf mərhələsindədir. Belə ki, son zamanlar bu sahənin inkişafı, yüksək dünya standartlarına çatdırılması istiqamətində məqsədyönlü layihələr, böyük həcmli işlər həyata keçirilir. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, qəbul olunan Dövlət proqramları bu sahədə islahatların daha da sürətlənməsinə, dəmir yanğınsöndürmə sistemi quraşdırılıb.

Diqqətə çatdırılıb ki, Nərimanov stansiyasının binası da əsaslı təmir edilib, platformalar və buradakı yerüstü piyada keçidi yenidən qurulub. Stansiyada yeni dəmir yolları salınıb və müasir işıqlandırma dirəkləri quraşdırılıb. Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə bütün rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigelləri və kontakt şəbəkəsi yenidən qurulub.

Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğun qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf strategiyasının bəhrəsidir. Bu strategiya Azərbaycanı Qərb ilə Şərq, Şimal ilə Cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir.

Prezident İlham Əliyevin görülən işlərlə tanışlığı Bakı Dəmir Yolu Vağzalında başa çatıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Elmlər Akademiyasının prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyev Azərbaycan Respublikasının Prezidenti ilə bu görüşün onun üçün və ümumilikdə, Rusiya Elmlər Akademiyası üçün böyük önəm daşıdığını deyib. Əvvəlki illərdə Elmlər akademiyaları arasında birgə səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən Aleksandr Sergeyev sonrakı dövrlərdə elmi əlaqələrin qırıldığını vurğulayaraq indi bu əlaqələrin yenidən bərpa edilməsinin zəruriliyini bildirib. O, ölkəmizə səfərinin əsas məqsədinin bundan ibarət olduğunu diqqətə çatdırıb.

Dövlətimizin başçısı elm sahəsində əvvəllər mövcud olan ənənəvi əlaqələrin hazırkı dövr və gələcəkdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı əsas yaratdığını bildirib. Rusiya elminin son illər əldə etdiyi nailiyyətlərə toxunan dövlətimizin başçısı ölkələrimizin gələcək elmi əməkdaşlığı üçün yaxşı potensialın olduğunu vurğulayıb. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafının elm sahəsində də əlaqələrin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi üçün yaxşı imkan yaratdığını deyib. Dövlətimizin başçısı Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin Azərbaycana səfərinin ölkələrimiz arasında elmi əməkdaşlığın inkişafı və bu sahədə konkret addımların atılması işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# AMEA ilə Rusiya Elmlər Akademiyası arasında elmi-texniki əməkdaşlıq haqqında saziş imzalanıb

Mayın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə ölkəmizdə səfərdə olan Rusiya Elmlər Akademiyasının (REA) prezidenti, akademik Aleksandr Sergeyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüşdən əvvəl qonaqlar Fəxri xiyabana gedərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi anılıb, məzarı önünə gül dəstələri qoyulub.

AZƏRTAC xəbər verir ki, Rəyasət Heyətində keçirilən görüşdə AMEA və REA arasında elmi-texniki əməkdaşlıq haqqında saziş imzalanıb. Sazişi AMEA-nın prezidenti, akademik Akif Əlizadə və REA-nın prezidenti, akademik Aleksandr Sergeyev imzalayıblar. Sənəddə elm və texnologiyaların prioritet istiqamətləri üzrə birgə elmi və elmi-texniki layihələrin hazırlanması və həyata keçirilməsi, bilik, təcrübə və informasiya mübadiləsi, yüksəkixtisaslı kadrlar hazırlanması, birgə tədbirlər keçirilməsi kimi məsələlər öz əksini tapıb.

Akademik Akif Əlizadə AMEA ilə REA arasında səmərəli əməkdaşlıq əlaqələrindən danışıb, 50 il öncə SSRİ Elmlər Akademiyasının prezidenti, akademik M.Keldışın Azərbaycana səfəri zamanı onu şəxsən müşayiət etdiyini söyləyib.

Akif Əlizadə 1945-ci il martın 27-də Azərbaycan SSR Elmlər Akademiyasının təsis edilməsinin ölkə elminin inkişafında böyük rolu olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə martın 27-si respublikamızda "Elm günü" kimi qeyd edilib.

AMEA-nın prezidenti əməkdaşlıq haqqında sazişin əhəmiyyətindən danışıb. Bildirib ki, müasir elmin çağırışları, bir çox elmi istiqamətlərin multidissiplinar xarakteri, elmin, yeni texnologiyaların və innovasiya fəaliyyətinin inkişafı hər iki qurum arasında müxtəlif sahələr üzrə elmi əlaqələrin gücləndirilməsi məqsədini daşıyan sazişin imzalanmasına zərurət yaradıb.

Akademik Aleksandr Sergeyev görüşə görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib. O, bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyünü, həmin görüşün böyük əhəmiyyət daşıdığını vurğulayıb. Azərbaycana səfərinin əsas məqsədinin ikitərəfli elmi əlaqələrin möhkəmləndirilməsi və daha da genişləndirilməsindən ibarət olduğunu qeyd edib.

Aleksandr Sergeyev sazişin əhəmiyyətindən və perspektivlərdən söz açıb. Əsas məqsədin Xəzərin mineral ehtiyatları, biomüxtəlifliyi, ekoloji problemləri, Xəzər dənizinin iqlim və demoqrafik şəraitə təsiri, neft kimyası, nanotexnologiyalar, kosmik tədqiqatlar, tibb və farmakologiya, tarix, arxeologiya kimi elmi sahələrin prioritet istiqamət olduğunu vurğulayıb.

AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev gələcək tədqiqatlara dair bir sıra təkliflər irəli sürüb. Qeyd edib ki, Xəzər dənizinin biosenozunun öyrənilməsi, paleogenetika məsələləri və Qafqazın biomüxtəlifliyini araşdıran tədqiqatların aparılmasına böyük ehtiyac duyulur.

REA-nın vitse-prezidenti, akademik Taliya Xabriyeva Xəzər dialoqunun iqtisadiyyat, ekologiya, energetika və etnik miqrasiya sahələrində birgə tədqiqatların təşkilinə, həmçinin Xəzər məsələləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi məsələsinə müsbət təsir edəcəyini bildirib.

Sonra AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, akademik Nazim Məmmədov nanoplazmonika sahəsində multidissiplinar tədqiqatların aparılması, İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova isə etnogenez, fəlsəfə, mədəniyyətlər və dinlərarası əlaqələrin öyrənilməsinin vacibliyini qeyd ediblər.

Görüşdə, həmçinin REA-nın Xarici Əlaqələr İdarəsinin rəisi Olqa Qluxovtseva, REA prezidentinin katibliyinin rəisi Valeriya Belyanina, Q.V.Plexanov adına RİU-nin Hüquqi Tədqiqatlar və Regional İnteqrasiya İnstitutunun direktoru, professor Rəşad Qurbanov, AMEA-nın vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli, Dilqəm Tağıyev, Rasim Əliquliyev, İradə Hüseynova, AMEA-nın akademik-katibi vəzifəsini icra edən, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, elmi bölmələrin akademik-katibləri, AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq Əlaqələr İdarəsinin rəisi, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva və digərləri iştirak ediblər.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Fransada silsilə görüşlər keçirib

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Fransa Respublikasına səfəri çərçivəsində Fondun üzv dövlətlərinin Fransada akkreditə olan səfirləri ilə görüşlər keçirib.



Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, Türkiyənin Fransadakı səfiri İsmail Hakki Musa, Qazaxıstanın Fransadakı səfiri Sem Jan Qaliyev, Qırğızıstanın Belçika Krallığındakı səfiri Muktar Djumalaev ilə keçirilən görüşlərdə G.Əfəndiyeva türk dünyasına xas mədəniyyətin, irsin mühafizəsi və dünyaya tanıdılması yönündə Fondun həyata keçirdiyi layihələrdən bəhs edib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondundan AZƏRTAC-a bildirilib ki, görüşlərdə təşkilatın fəaliyyətində quruma üzv ölkələrin aktiv rolu qeyd edilərək, türkdilli xalqların tarixi-mədəni mirasının mühafizəsi istiqamətində birgə tədbir və layihələrin həyata keçirilməsi ilə əlaqədar dəstək ifadə olunub, mövcud əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Həmçinin, səfər çərçivəsində G.Əfəndiyeva ilə UNESCO-nun Baş direktorunun müavini Firmin Eduard Matoko arasında keçirilən görüşdə Fond ilə UNESCO arasında mədəni irsin mühafizəsi istiqamətində gələcək birgə əməkdaşlıq müzakirə edilib.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Kürdəxanı qəsəbəsində olub



Mayın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində olublar.



AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva əvvəlcə Kürdəxanı qəsəbəsində Hüseynbala Ağaverdiyev adına 113 saylı tam orta məktəbinə gəliblər. Məlumat verilib ki, Kürdəxanı qəsəbəsində 6 min nəfər əhali yaşayır. Burada bir məktəb var. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu təhsil ocağının siniflərinə baxıblar, müəllim və şagirdlərlə görüşüblər.



113 saylı tam orta məktəb 2 korpusdan ibarətdir. Birinci korpus 1971-ci ildə inşa olunub. Sonuncu dəfə burada cari təmir işləri 2006-cı ildə aparılıb. Tədrisin Azərbaycan dilində aparıldığı məktəbdə ümumilikdə 2320 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100 müəllim məşğul olur. Burada tədris 2 növbəlidir. Mehriban Əliyevaya məlumat verilib ki, məktəbin 2-ci korpusu isə 2008-ci ildə inşa olunub. Birinci vitse-prezident məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasına dair göstəriş verib.

* * *

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Kürdəxanı qəsəbəsinin sakini Telman Əliyevin evində qonaq olublar.



Qeyd edək ki, Telman Əliyev ailəsi ilə birlikdə Mərdəkan qəsəbəsində yerləşən ziyarətgahda olarkən Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşüblər və Mehriban Əliyevanı evlərinə çay süfrəsinə dəvət ediblər.

Telman Əliyevin ailəsi ilə görüşdə Mehriban Əliyeva bildirib ki, qəsəbənin sosial-iqtisadi inkişafı, iş yerlərinin yaradılması istiqamətində işlər bundan sonra da davam etdiriləcək. Ailə üzvləri Kürdəxanı qəsəbəsinin inkişafına göstərdiyi diqqətə görə Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq ediblər.

Sonda Telman Əliyevin ailəsinin adından Mehriban Əliyevaya hədiyyə təqdim olunub və xatirə şəkli çəkdirilib.



# Azərbaycanın dinamik daxili və xarici siyasəti ölkənin milli maraqlarına əsaslanır

***Prezident İlham Əliyev:** Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək*

*Son 15 ildə Azərbaycan ölkənin potensialına və milli maraqlarına əsaslanan, eyni zamanda, qlobal miqyasda meydana çıxan çağırışlarla adekvatlıq təşkil edən, gözlənilən bütün riskləri önləməyə hesablanan məqsədyönlü praqmatik siyasət həyata keçirib. Nəticədə isə ölkəmizin bütün dünyada böyük maraqla izlənilən hər cəhətdən nümunəvi inkişaf modeli formalaşıb. Bütövlükdə respublikamızın daxili və xarici siyasəti kifayət qədər dinamik və intensiv xarakter daşıyır. Bir-birini tamamlayan bu siyasət ölkənin iqtisadi-maliyyə imkanlarının genişlənməsinə və bu əsasda insanların həyat səviyyəsinin daha da yüksəlməsinə, eləcə də Azərbaycanın beynəlxalq miqyasda mövqelərinin möhkəmlənməsinə hesablanıb.*



Sevindirici haldır ki, son 15 ildə beynəlxalq miqyasda iqtisadi baxımdan Azərbaycan kimi dinamik inkişaf edən ikinci bir dövlət olmayıb. Ölkəmiz öz inkişafını inamla davam etdirir. Bunu 2019-cu ilin birinci rübündə qazanılan uğurlar da təsdiqləyir. Respublikamızda yanvar-mart ayları üzrə ümumi daxili məhsul istehsalında 3 faizlik artıma nail olunub ki, bu da son illərin ən yaxşı göstəricisidir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində vurğulayıb ki, əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir.

Eyni zamanda, ölkəmizin xarici siyasətdə qazandığı uğurlar da kifayət qədər çoxdur. Respublikamız regional və qlobal əməkdaşlığa getdikcə daha sanballı töhfələr verir. Azərbaycan artıq mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən və bu tədbirlərdə özünün yüksək standartlarını müəyyənləşdirən bir məkana çevrilib. Bu tədbirlərdə bir qayda olaraq ölkəmizin müsbət reallıqları təqdim olunur və beynəlxalq birliyə əməkdaşlıqla, təhlükəsizliklə bağlı çox mühüm mesajlar ünvanlanır. Deyilənlərin təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, təkcə cari ilin birinci rübündə respublikamızda bir neçə mötəbər beynəlxalq tədbir keçirilib. Onların arasında VII Bakı Qlobal Forumunu qeyd edə bilərik. Bu, hazırda dünya miqyasında ən mötəbər forumlardan biridir. Bakıda keçirilən forumda 50 ölkəni təmsil edən 500-dən çox qonaq iştirak edib. Cari ilin birinci rübündə Bakıda Azərbaycanın təşəbbüsü ilə OPEC+ görüşü keçirilib. Respublikamız həmçinin ənənəvi olaraq keçirilən Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının tədbirinə ev sahibliyi edib. Bakıda keçirilən "Formula-1" yarışları ilə bağlı həyəcanlı anlar da hələ yaddaşlardan silinməyib. Mayın əvvəlində şəhərimizdə "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da kifayət qədər mötəbər tədbirdir. Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak ediblər. Yeri gəlmişkən, Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında söylədiyi nitqində Azərbaycanın həyata keçirdiyi daxili və xarici siyasətin müsbət nəticələrindən ətraflı bəhs edib. **"Bizim fəal xarici siyasətimiz var. İqtisadi siyasətimiz ölkə əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradıb",** - deyə dövlət başçısı vurğulayıb.

## AZƏRBAYCAN XALQI ÖZ GƏLƏCƏYİNİ SABİTLİK ŞƏRAİTİNDƏ QURUR

Hazırda biz qlobal miqyasda müxtəlif, bir sıra hallarda isə arzuolunmaz proseslər getdiyinin şahidi oluruq. Kütləvi informasiya vasitələrində yayılan xəbərlərdən, televiziya süjetlərindən görürük ki, dünyada, bizim regionumuzda, Yaxın Şərqdə, Avropada vəziyyət getdikcə gərginləşir. Təəssüf doğuran haldır ki, qlobal miqyasda risklər, sülhə, təhlükəsizliyə, inkişafa qarşı yönələn təhdidlər getdikcə daha geniş miqyas alır.

Dünyanın ayrı-ayrı regionlarında yaşanan gərginliklərlə müqayisədə Azərbaycandakı vəziyyət tamam fərqli bir rakursdan diqqəti çəkir. Belə ki, respublikamız sabitlik və inkişaf adası kimi fərqlənir. Xalqımız öz gələcəyini əmin-amanlıq şəraitində qurur, gələcəyə ümidlə baxır. Möhkəm sabitlik ölkənin perspektiv inkişafı üçün fundamental amil rolunda çıxış edir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ölkəmizin öz yolu ilə gedərək sabitlik şəraitində uğurlara imza atmasını xüsusi vurğulayıb. **"Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək",** - deyə dövlət başçısı bildirib.

Müstəqil Azərbaycanın dünyada böyük maraqla izlənən nümunəvi inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri odur ki, ölkəmizdə aparılan məqsədyönlü siyasət iqtidar-xalq vəhdəti prinsipinə əsasən müəyyənləşdirilir. Azərbaycan iqtidarı reallaşdırdığı siyasətdə bir qayda olaraq milli maraqları əsas götürür, daim xalqın mənafeyindən çıxış edir. Öz növbəsində, cəmiyyət də iqtidarın ölkənin daha da güclənməsinə, insanların rifah halının yaxşılaşmasına yönələn siyasətinə yüksək səviyyədə dəstək verir. Azərbaycan cəmiyyətinin monolitliyinin, iqtidar ətrafında sıx birləşməsinin nəticəsidir ki, respublikamızda dövlətçiliyimizə, vətəndaş həmrəyliyinə qarşı yönələn bütün daxili risklər tam şəkildə aradan qaldırılıb. Radikal müxalifətin ölkədə bərqərar olan daxili sabitliyi pozmaq cəhdləri bir qayda olaraq fiaskoya uğrayır.

Eyni zamanda, Azərbaycan cəmiyyəti xaricdəki bəzi qüvvələrin ölkəmizə qarşı yönələn fəaliyyətlərinin dəf edilməsində də iqtidarla yüksək həmrəylik nümayiş etdirir. Məlumdur ki, "beynəlxalq" sözü altında pərdələnən bəzi qeyri-hökumət təşkilatları Azərbaycana qarşı iddialar sərgiləyən imperialist güc mərkəzlərinin, ermənipərəst dairələrin ruporuna çevriliblər. Təəssüf doğuran haldır ki, bir sıra "sapı özümüzdən olan baltalar" da respublikamızdakı möhkəm daxili sabitliyin pozulmasına yönələn ssenarilərdə yer alırlar. Respublikamızdakı radikal müxalifət düşərgəsində cəmləşən qüvvələrin xaricdəki anti-Azərbaycan dairələrlə sinxron, əlaqələndirilmiş fəaliyyəti bununla bağlı qənaətlərimizi daha da möhkəmləndirir. Ancaq bu kimi cəhdlər əbəsdir. Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, Azərbaycan cəmiyyəti kifayət qədər yetkin cəmiyyətdir. İnsanlar ağı qaradan seçməyi, hər kəsə layiq olduğu qiyməti verməyi yaxşı bacarırlar. Azərbaycan cəmiyyətinin ovqatına, ab-havasına istinadən qətiyyətlə demək mümkündür ki, respublikamızda daxili sabitliyin pozulmasına yönələn cəhdlər heç bir halda reallaşmayacaq və ölkəmiz əmin-amanlıq şəraitində özünün inamlı inkişafını bundan sonra da davam etdirəcək. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində Azərbaycan cəmiyyətinə və xalqına dərin inamını ifadə edən Prezident İlham Əliyev **"Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli, xəyanətkar ünsürlər Azərbaycanda nə isə əldə etsinlər. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir",** - deyə vurğulayıb.

> *"İqtisadi sahədə aparılan islahatlar hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır və tapır"*

> *"Bizim Avropa İttifaqı ilə yaxın münasibətlərimiz var. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər qəbul edilib"*

## YENİ SOSİAL PAKETİN REALLAŞDIRILMASI NƏTİCƏSİNDƏ AZƏRBAYCANDA 3 MİLYONDAN ÇOX VƏTƏNDAŞIN MADDİ VƏZİYYƏTİ DAHA DA YAXŞILAŞACAQ

Azərbaycanın mənzərəsini səciyyələndirən əsas cəhətlərdən biri də odur ki, ölkənin dinamik iqtisadi inkişafı genişməzmunlu sosial siyasətlə tamamlanır. Respublikamızın iqtisadi gücü artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapır. Prezident İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün geniş imkanlar yarandığına diqqət çəkərək deyib: **"İqtisadi sahədə aparılan islahatlar hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır və tapır. Biz əməkhaqlarını, pensiyaları, müavinətləri nəyin hesabına artırırıq? Ona görə ki, daha da səmərəli işləyirik, ona görə ki, büdcə daxilolmaları artır və artacaq".**

Dövlət başçısının siyasi iradəsi əsasında müəyyənləşdirilən strateji kursa uyğun olaraq ölkəmizdə cari ilin əvvəlindən sosial sahədə çox ciddi addımlar atılıb. Prezident İlham Əliyev 2019-cu ilin arxada qalan dövrü ərzində bilavasitə insanların rifah halının yaxşılaşmasına, gəlir imkanlarının artırılmasına hesablanan çoxsaylı Fərman və sərəncamlar imzalayıb. Bəhs olunan sənədlərə əsasən deyə bilərik ki, Azərbaycan hakimiyyətinin yürütdüyü sosial siyasət inqilabi xarakter daşıyır.

Ölkəmizdə Prezident İlham Əliyev tərəfindən ötən il elan edilən və 2019-cu ilin əvvəlindən aktiv şəkildə icrasına başlanan böyük sosial paketin əhatə dairəsi kifayət qədər genişdir. Məlum olduğu kimi, cənab İlham Əliyev ötən il keçirilən seçkilərdə dövlət başçısı seçildikdən sonra Öz vədinə sadiq qalaraq 2018-ci il 19 aprel tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq Fərman imzalayıb. Bəhs olunan Fərmanın icrasına ötən il noyabrın 14-dən başlanılıb. Dövlət başçısının 28 yanvar 2019-cu il tarixində imzaladığı digər Fərmanla birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsi daha da genişlənib. Belə ki, sənədə əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin (o cümlədən 11000 manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin) vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi tapşırılıb. Yeni Fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir və bu məqsədlər üçün ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev cari il fevralın 28-də "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmana əsasən, devalvasiya nəticəsində insanlara dəyən ziyan dövlət tərəfindən ödənilir. Fərmanın əhatə dairəsinə 800 mindən çox insan düşür. Bunun üçün dövlət tərəfindən 700 milyon manatdan çox vəsait ödəniləcək. Bütövlükdə, problemli kreditlərin həlli Azərbaycan hakimiyyətinin ciddi sosial təşəbbüsüdür.

Dövlət başçısının imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi" haqqında Fərman mənzil idarəçiliyi baxımından problemlərin həllinə gətirib çıxaracaq, vətəndaşların mənzil və yaşayış şəraitinin yaxşılaşmasına, o cümlədən sosial rifahının daha da yüksəlməsinə müsbət təsir göstərəcək. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə dair" Sərəncamla sosial müavinətlər əhəmiyyətli dərəcədə artırılıb.

Respublikamızda əməkhaqlarının artırılması tendensiyası 2019-cu ildə də davam etdirilir. Qeyd edək ki, minimum əməkhaqqının və minimum pensiyanın artırılması 830 minə yaxın insanı əhatə edir. Ümumiyyətlə, ölkəmizdə Prezident İlham Əliyev tərəfindən ötən il elan edilən və 2019-cu ilin əvvəlindən aktiv şəkildə icrasına başlanan böyük sosial paketin əhatə dairəsi kifayət qədər genişdir. Yeni sosial paketin reallaşdırılması nəticəsində Azərbaycanda 3 milyondan çox vətəndaşın maddi vəziyyəti daha da yaxşılaşacaq.

> *"Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq"*

## ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN ƏDALƏTLİ HƏLLİNƏ NAİL OLUNMASI ÖLKƏMİZİN XARİCİ SİYASƏTİNİN PRİORİTETİNİ TƏŞKİL EDİR

Ölkəmizin milli maraqlara əsaslanan xarici siyasətinin əsas prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Azərbaycan ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində, eləcə də digər beynəlxalq platformalarda prinsipial mövqe sərgiləyir və tarixi ədalətin bərpa olunması naminə ardıcıl səylər göstərir. Azərbaycan Prezidenti İlham Əliyev keçirdiyi müxtəlif səviyyəli görüşlərdə dəfələrlə bəyan edib ki, münaqişə ilə bağlı aparılan danışıqlar yalnız danışıqlar xatirinə aparılmamalıdır, bu danışıqlar substantiv nəticələrə yönəlməlidir. **"O ki qaldı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə, bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq",** - deyə Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində vurğulayıb.

Qeyd edək ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrdə, eləcə də bu ali qurumun sədrinin bəyanatlarında Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilib. Təhlükəsizlik Şurasının bəhs olunan sənədlərində işğalçı qüvvələrin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması vurğulanıb.

Ümumiyyətlə, əksər beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı respublikamızın ədalətli mövqeyini dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı respublikamızın haqlı mövqeyini dəstəkləyərək çox önəmli qətnamələr qəbul ediblər.

> *"Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli, xəyanətkar ünsürlər Azərbaycanda nə isə əldə etsinlər. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir"*

## AZƏRBAYCANLA AVROPA İTTİFAQI ARASINDA SƏMİMİ, İŞGÜZAR, FAYDALI ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ MÖVCUDDUR

Milli maraqlara əsaslanan çoxvektorlu xarici siyasət həyata keçirən Azərbaycan həmçinin beynəlxalq təşkilatlarla əlaqələrini qarşılıqlı maraqlar əsasında daha da dərinləşdirməyə çalışır. Bu baxımdan Azərbaycanla Avropa İttifaqı arasındakı əlaqələr də istisna deyil. Avropa İttifaqı ilə əlaqələrin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri kimi müəyyən edilib. Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq Azərbaycanla Avropa İttifaqı arasında səmimi, işgüzar, faydalı əməkdaşlıq əlaqələri qurulub. Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki nitqində Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərin getdikcə daha da möhkəmləndiyini diqqətə çatdırıb. **"Bizim Avropa İttifaqı ilə yaxın münasibətlərimiz var. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər qəbul edilib",** - deyə dövlət başçısı bildirib.

Azərbaycan Avropa İttifaqı üçün əhəmiyyətli tərəfdaşdır. İndiyədək respublikamızla Avropa İttifaqı arasında bir çox sahələrdə qarşılıqlı faydalı əlaqələr qurulub. Bu, özünü daha qabarıq şəkildə enerji sahəsində əməkdaşlıqda göstərir. Azərbaycan Aİ-nin enerji təhlükəsizliyinə mühüm töhfə verir. Təsadüfi deyil ki, Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk Prezident İlham Əliyevlə görüşü zamanı Azərbaycanı Avropa İttifaqının etibarlı, məsuliyyətli tərəfdaşı kimi dəyərləndirib və Azərbaycanın regionda oynadığı rolun Aİ tərəfindən müsbət qiymətləndirildiyini vurğulayıb.

Azərbaycan-Avropa İttifaqı münasibətlərində diqqəti çəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, qurum ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstək verir. Aİ-nin bu mövqeyi qəbul edilmiş ikitərəfli sənədlərdə, o cümlədən də ötən il imzalanan "Tərəfdaşlıq prioritetləri"ndə açıq şəkildə ifadə olunub.

Deyilənlərdən çıxış edərək vurğulamaq yerinə düşər ki, yekun bəyanatın qəbul olunması ilə əlaqədar irəli sürülən bəzi iddiaların əsası yoxdur. Şərq Tərəfdaşlığı Proqramının 10 illik yubiley tədbirində ilkin olaraq tezislərdən ibarət yekun bəyanat verilməsi nəzərdə tutulmuşdur. Sonra isə bütün iştirakçı dövlətlərin rəyi də nəzərə alınmaqla Aİ-nin Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali Komissarının adından ümumi yekun qeydlər sənədinin qəbul olunması qərara alınıb. Bu sənəddə də Aİ-nin əvvəlki illərdə qəbul olunmuş sənədləri, o cümlədən 2017-ci il Brüssel sammitinin yekunları ilə bağlı sənədin müvafiq müddəaları da diqqətdə saxlanılıb.

Prezident İlham Əliyevin Brüsseldə Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının şərəfinə verilən şam yeməyində çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan Aİ-nin Şərq Tərəfdaşlığı Proqramında ən fəal iştirak edən ölkələrdən biridir. Hazırda Aİ ilə Azərbaycan arasında tərəfdaşlığa dair sənəd hazırlanır. Bu sənəddə əsas müzakirə mövzusu enerji və ticarət məsələləridir. Azərbaycan Aİ ilə bərabərhüquqlu tərəfdaşdır və buna görə də öz vətəndaşlarının və şirkətlərinin maraqlarını qorumalıdır və bərabərhüquqlu rəqabət mühitinin formalaşdırılmasına səylər göstərilir. Bu məqam qəbul olunması nəzərdə tutulan tərəfdaşlıq sənədinin əsas qayələrindən birini təşkil edir. Ümumiyyətlə, Prezident İlham Əliyevin Brüsselə səfəri və keçirdiyi görüşlər Azərbaycanla Aİ arasında tərəfdaşlığın möhkəmlənməsi baxımından böyük əhəmiyyət daşıyır. Dövlət başçısının Brüsseldə keçirdiyi görüşlərdə ayrı-ayrı sahələr üzrə əməkdaşlıq prioritetləri bir daha nəzərdən keçirilib və faydalı fikir mübadiləsi aparılıb.

**Mübariz ABDULLAYEV**

# Bakıda “Dövlət Borcunun İdarə Edilməsi üzrə Asiya Regional Forumu” keçirilir







Mayın 21-də Bakıda Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Asiya İnkişaf Bankının (ADB) birgə təşkilatçılığı ilə “Dövlət Borcunun İdarə Edilməsi üzrə Asiya Regional Forumu” öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən maliyyə naziri Samir Şərifov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət maliyyə idarəetməsi, o cümlədən dövlət borcunun idarə olunması sahəsində həyata keçirilən islahatlar, dövlət borcunun idarə edilməsi strategiyası, habelə Azərbaycanın bu sahəyə ayırdığı diqqət barədə forum iştirakçılarını məlumatlandırıb. Nazir qeyd edib ki, həyata keçirilən islahatların və dövlət borcunun idarə edilməsi üzrə orta və uzunmüddətli strategiyanın icra edilməsi nəticəsində Azərbaycanda xarici valyutada denominasiya edilən dövlət borcunun səviyyəsi 17 faiz azaldılaraq cari ilin əvvəlinə ölkə ÜDM-in 19 faizinə bərabər olub.

S.Şərifov, eyni zamanda, dünyada borc səviyyəsinin xüsusilə, inkişaf etmiş ölkələrdə yüksək səviyyədə olduğunu qeyd edərək borca xidmət xərclərinin yüksəldiyini və bununla əlaqədar risklərin də artdığını qeyd edib. **“Belə ki, Beynəlxalq Valyuta Fondunun məlumatına əsasən, 2018-ci ilin sonuna inkişaf etmiş ölkələrin borc səviyyəsi ortalama ÜDM-in 102,6 faizinə, inkişaf etməkdə olan ölkələrdə isə 50,5 faizinə bərabər olub. Bu da, öz növbəsində, borcun düzgün idarə edilməsinin əhəmiyyətini bir daha aktuallaşdırır”.**

Nazir bankın ölkəmizdə maliyyələşdirdiyi enerji, infrastruktur layihələrinin əhəmiyyəti və icra vəziyyətindən, ikitərəfli əməkdaşlığın əhəmiyyətindən söhbət açıb. O, Asiya İnkişaf Bankının Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizi layihəsinə həm birbaşa, həm də ADB-nin zəmanəti ilə sindikatlaşdırılmış kreditlər ayırdığını deyib. Bildirib ki, Azərbaycan qazının 2020-ci ildə qitəyə çatdırılacağı gözlənilir.

S.Şərifov Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunduğunu, yeni hesabatda Azərbaycanın mövqeyinin 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını bildirib. Deyib ki, son 15 ildə Azərbaycan iqtisadiyyatı çox yüksək templə inkişaf edib. ÜDM 3,3, sənaye istehsalı 2,6, ixrac 4,7, valyuta ehtiyatları isə 24 dəfə artıb. Nazir Azərbaycanda həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar proqramı və əldə edilmiş nailiyyətlər, ölkənin bank-maliyyə sisteminin möhkəmləndirilməsi sahəsində görülən işlərdən danışıb.

Qeyd edib ki, ölkə başçısının tapşırığına əsasən, Azərbaycan beynəlxalq maliyyə təşkilatlarının proqramlarında, o cümlədən Asiya İnkişaf Bankının Asiya İnkişaf Fondunda donor ölkə qismində iştirak edəcək.

ADB-nin maliyyə və risklərin idarə edilməsi üzrə vitse-prezidenti İngrid van Vees isə bankın ölkəmizlə uğurlu əməkdaşlığından, Azərbaycanda aparılan islahatların əhəmiyyətindən danışıb. O, Azərbaycanın sosial-iqtisadi göstəricilərinin qısa müddət ərzində yaxşılaşdırılmasını yüksək qiymətləndirib.

Forum işini panel iclaslarla davam etdirir. Üç gün davam edəcək forumda ADB-yə üzv olan ölkələrin və beynəlxalq maliyyə qurumlarının dövlət borcunun idarə edilməsi sahəsində 100-dən çox yüksəkvəzifəli nümayəndələri və ekspertləri iştirak edir. Forumun gündəliyinə “Mövcud makroiqtisadi şəraitdə borcun idarə edilməsi üzrə effektiv strategiyalar”, “Borcun idarə edilməsi və monetar siyasətin effektiv əlaqələndirilməsinin əsası”, “Dövlət borcunun idarə edilməsinə nəzarət” və digər məsələləri əhatə edən sessiyalar daxildir.

Asiya İnkişaf Bankı tərəfindən hər il seçilmiş üzv ölkə ilə əməkdaşlıq çərçivəsində keçirilən “Dövlət Borcunun İdarə Edilməsi üzrə Asiya Regional Forumu”nun təşkil edilməsində məqsəd dövlət borcunun idarə edilməsi sahəsində qabaqcıl təcrübələrin üzv ölkələrin nümayəndələri ilə bölüşülməsini təmin etməkdir.

# Dövlət Gömrük Komitəsi ilə BMT arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



Dövlət Gömrük Komitəsi (DGK) ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.

Komitənin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, mayın 21-də DGK-nın sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb.

Ölkə iqtisadiyyatının formalaşmasında mühüm rolu olan gömrük işinin daha səmərəli və şəffaf şəkildə qurulması istiqamətində görülən tədbirlər barədə məlumat verən S.Mehdiyev Prezident İlham Əliyevin rəhbərliyi ilə gömrük sistemində həyata keçirilən islahatların Azərbaycan gömrüyünün beynəlxalq aləmdə etibarının artmasına, müasir texnologiyaların və innovativ layihələrin tətbiq edildiyi qabaqcıl və mütərəqqi quruma çevrilməsinə şərait yaratdığını vurğulayıb.

O, BMT ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında mövcud əlaqələrdən söhbət açıb və səmərəli əməkdaşlığın gömrük xidmətinin inkişafına müsbət təsirindən danışıb.

S.Mehdiyev, həmçinin Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin İnkişaf Proqramı və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilən “Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək” layihəsinin sərhədlərin təhlükəsizliyinin gücləndirilməsinə, əmtəə və xidmət keçidlərinin asanlaşdırılmasına mühüm töhfə verdiyini bildirib.

Birgə reallaşdırılan layihələri bütövlükdə BMT İnkişaf Proqramının Dövlət Gömrük Komitəsinə xüsusi diqqət və qayğısının təzahürü kimi qiymətləndirən DGK-nın sədri bundan sonra da qarşılıqlı fəaliyyətin, birgə əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu deyib.

Q.İshaqzai təmsil etdiyi qurumun gömrük orqanları ilə əlaqəli fəaliyyətindən söhbət açıb, gömrük sistemində həyata keçirilən islahatları yüksək qiymətləndirib, Azərbaycan Gömrük Xidməti ilə əməkdaşlığın perspektivləri barədə fikirlərini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi qərb bölgəsində vətəndaşların müraciətlərini dinləyib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 21-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Tovuz, sədrin birinci müavini Səyyad Salahlı Ağstafa, sədr müavini Gündüz İsmayılov isə Gədəbəy rayonunda vətəndaşların qəbulunu keçiriblər.

Komitədən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ümummilli Lider Heydər Əliyevin Tovuz şəhərində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb.





Qəbullarda əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə baxılıb.

Tovuz, Şəmkir, Ağstafa, Qazax və Gədəbəy rayonlarının sakinlərinin iştirak etdiyi qəbullar zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə Komitənin bölgə şöbəsinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Tovuzda “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda regional konfrans keçirilir





Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atıb.

Bu fikir mayın 21-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Tovuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda regional konfransda səsləndirilib.

Tədbirdə dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

Regional konfransda ölkəmizdə dini sahəyə göstərilən diqqət və qayğıdan bəhs olunub, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızda dinə münasibətin tamamilə dəyişdiyi, ölkədə milli-mənəvi dəyərlərimizə, dinimizə hər zaman hörmət və qayğı ilə yanaşıldığı diqqətə çatdırılıb. Bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi vurğulanıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Ümummilli Lider Heydər Əliyevin balanslaşdırılmış siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atır. Komitə sədri vurğulayıb ki, dövlətin dini icmalara göstərdiyi qayğı gündən-günə artmaqdadır. Böyük tarixə malik məbədlərin təmir və bərpası davam etdirilir, dini ayinlərin icrası üçün yüksək şərait yaradılır.

Çıxışında dinin siyasiləşdirilməsinin fəsadları barədə də danışan Mübariz Qurbanlı diqqətə çatdırıb ki, terrorçuluğun dini olmadığı kimi, radikallığın da dini yoxdur. Hamımız bilirik ki, İslamın mütərəqqi dünyabaxışı, həyat fəlsəfəsi qətiyyən zorakılığı, radikallığı təbliğ etmir. İslam dini müqəddəsdir və onun əsas mahiyyəti sülhdür, dostluqdur. Onun sözlərinə görə, bəzi din adı altında fəaliyyət göstərən qüvvələr öz siyasi, yaxud digər maraqları çərçivəsində dini baxışları radikal formada təqdim edir, ekstremizmə rəvac verirlər. DQİDK sədri bu cür mənfi təzahürlərin qarşısının alınmasında dini maarifləndirmənin xüsusi əhəmiyyətə malik olduğunu deyib.

Milli Məclisin deputatı Qənirə Paşayeva Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dini maarifləndirmə sahəsində həyata keçirdiyi tədbirlərin önəminə toxunub. İslam dininin olduğu kimi, sağlam əsaslarla gənclərə təbliğ edilməsinin vacibliyini vurğulayan deputat bunun əksinin cəmiyyətdə bir çox fəsadlara səbəb olduğunu deyib. O qeyd edib ki, son dövrlər bəzi müsəlman ölkələrində baş verən münaqişələr dini radikalizm, məzhəb ayrı-seçkiliyi və xurafatdan qaynaqlanır. Ölkəmizdə milli-mənəvi və dini dəyərlərimizə yad olan ideologiyaların təbliğinin yolverilməz olduğunu dilə gətirən Q.Paşayeva cəmiyyətin düzgün dini biliklərlə məlumatlandırılmasının dini radikal qrupların təsirindən qorumaq baxımından olduqca əhəmiyyətli olduğunu bildirib. Deputat, həmçinin Azərbaycanda mövcud olan dövlət-din münasibətlərindən bəhs edib, ölkəmizin nümunəvi tolerantlıq modeli nümayiş etdirdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, müzakirələrlə yekunlaşan konfrans işini mayın 22-də “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panellə davam etdirəcək.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltif və mükafatların təqdimatı olub





Mayın 21-də Azərbaycan Respublikası medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının və Azərbaycan Respublikası Prezidentinin mükafatının təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları təbrik edərək deyib: **"Bu gün Azərbaycanda möhkəm dövlətçilik vardır. Ümummilli Liderimiz Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik ənənələri ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Bunun da nəticəsində ölkəmizdə sabitlik, inkişaf və tərəqqi vardır. Ölkəmizdə müxtəlif sahələrdə çalışan vətənpərvər insanlar isə öz əməkləri ilə dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verirlər".**

Ali Məclisin Sədri deyib: **"Dövlət və xalq qarşısında xidməti olanlar o yerdə təltif olunurlar ki, həmin ölkədə dövlətçilik ənənələri, sabitlik və inkişaf olsun. Bu gün xidmətlərində və fəaliyyətlərində fərqlənənlərin təltif olunması da ölkəmizdə dövlətçilik ənənələrinin inkişaf etdiyini göstərir. İnsan əməyinə qiymət verilərkən o daha da məhsuldar olur. Təltif olunanlar da çalışdıqları sahələrdə nümunə göstərən, öz xidmətləri ilə fərqlənən insanlardır".**

**"Hər kəs çalışdığı sahədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verməlidir. Çünki dövlətçiliyin möhkəmlənməsi ölkənin davamlı inkişafı və sabitliyi deməkdir",** - deyən Ali Məclisin Sədri təltif olunanlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri medalları, Naxçıvan Muxtar Respublikasının fəxri adını, eləcə də Azərbaycan Respublikası Prezidentinin mükafatını təqdim edib.

Təltif olunanlardan Vüsal Əliyev, Füzuli Kazımov, Tahir Mirzəliyev, Rəşad Əliyev və Səbuhi Məmmədov əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq ediblər. Qeyd olunub ki, bundan sonra da Ulu Öndər Heydər Əliyevin siyasi xəttinə sadiq qalacaq, səmərəli fəaliyyət göstərərək ölkəmizin inkişafına töhfə verəcəklər.

Prezident mükafatçılarından Natiq Məmmədov, Əbülfəz Məmmədov, Zülfiqar Mahmudov, Zeynalabdın Babayev, Tamerlan Bağırov, Səyyad Məmmədov və Gülnarə Hüseynova minnətdarlıq edərək deyiblər ki, Naxçıvan Muxtar Respublikasında digər sahələrlə yanaşı, mədəniyyətin, incəsənətin inkişafına da xüsusi diqqət yetirilir. Milli dəyərlərimiz qorunur, muğam sənətimiz, milli musiqimiz və rəqslərimiz yaşadılır. Bu sahələrdə çalışanların təltif olunması da göstərilən diqqətin daha bir ifadəsidir.

Ali Məclisin Sədri qarşıdan dövlətçiliyimizin təməlinin qoyulduğu və elan edildiyi 28 May Respublika Gününün gəldiyini bildirib, bu münasibətlə təltif olunanları və onların timsalında muxtar respublika əhalisini təbrik edib.

# Milli Azərbaycan Tarixi Muzeyində Sara Tağıyevanın 120 illiyi qeyd olunub





Mayın 21-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində (MATM) məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin qızı Sara Tağıyevanın anadan olmasının 120 illiyinə həsr edilən tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə muzeyin direktoru, akademik Nailə Vəlixanlı Sara Tağıyevanın keşməkeşli, eyni zamanda, şərəfli ömür yolundan danışıb, onunla bağlı xatirələrini söyləyib.

MATM-ın elmi katibi, dosent Fərhad Cabbarov Sara Tağıyevanın atası Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik fəaliyyətinin tanıdılmasında rolu və muzeyin fondlarında ona aid qorunan zəngin sənədli materiallar haqqında məlumat verib.

Tədbirdə çıxış edən "Kaspi" Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva Hacı Zeynalabdin Tağıyevin böyük mesenat olduğunu deyib. Vurğulayıb ki, "Kaspi" qəzetinin milliləşdirilərək nəşr etdirilməsində Hacı Zeynalabdin Tağıyevin müstəsna xidmətləri olub. Qəzet ictimai şüurun, milli təfəkkürün inkişafında mühüm rol oynayıb.

Sona Vəliyeva, həmçinin Hacı Zeynalabdin Tağıyevin geniş xeyriyyəçilik fəaliyyəti göstərdiyini, maarifçiliyin inkişafına daim böyük dəstək verdiyini qeyd edib. Məşhur xeyriyyəçinin qızı Sara Tağıyevanın anadan olmasının 120 illiyinə həsr edilən tədbirin əhəmiyyətini vurğulayıb.

Tarix üzrə fəlsəfə doktoru Firdovsiyə Əhmədova Sara Tağıyevanın keçdiyi ömür yolu ilə bağlı fikirlərini bölüşüb.

Kinorejissor Ayaz Salayev, Xəzər rayonu H.Z.Tağıyev adına 123 nömrəli orta məktəbin direktor müavini Gülnarə Əzimova, tədqiqatçı Fuad Axundov, Tağıyev nəslinin yaxınlarından olan Elnur Musazadə və digər çıxış edənlər də Sara Tağıyevanın xidmətlərindən danışıblar.

Sonra Sara Tağıyeva haqqında televiziya filmindən fraqmentlər nümayiş etdirilib. Muzeyin nəzdindəki "Hacı Zeynalabdin Tağıyev klubu"nun üzvlərinin ifasında Teyyub Qurbanlının "Sara" poeması əsasında ədəbi-bədii kompozisiya göstərilib. Klubun üzvlərinə sertifikatlar təqdim olunub.

# YAP Səbail rayon təşkilatının iclasında qarşıda duran vəzifələr müzakirə edilib





Mayın 21-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının qərargahında rayon partiya təşkilatının qeydiyyatında olan bütün ərazi ilk partiya təşkilatlarının sədrləri ilə geniş tərkibdə iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən təşkilatın sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev ölkəmizin ictimai-siyasi həyatında gedən proseslər, qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıq prosesi, eləcə də YAP Səbail rayon təşkilatının qarşısında duran vəzifələr haqqında məlumat verib. Ş.Hacıyev Yeni Azərbaycan Partiyası və Mədəniyyət Nazirliyi arasında imzalanan "Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planı" haqqında məlumat verərək bildirib ki, YAP Səbail rayon təşkilatı Fəaliyyət Planında nəzərdə tutulan istiqamətlər, xüsusən Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin, milli-mənəvi dəyərlərimizin təbliği, tarixi-mədəni abidələrimizin qorunması, habelə vətənpərvərlik ruhunda çoxsaylı tədbirlərin keçirilməsi ilə bağlı fəaliyyətini daha da genişləndirəcək.

Vurğulanıb ki, yaxın günlərdə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi ilə əlaqədar YAP Səbail Könüllülər Birliyin üzvlərinin, tələbələrin hazırladığı və ifa etdiyi "Ənəlhəqq" tamaşasının nümayişi nəzərdə tutulur. Tələbələr tərəfindən nəzmlə yazılmış "Ənəlhəqq" tamaşası Nəsiminin həyatı və yaradıcılığına həsr olunub.

İclasda qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb və müvafiq tapşırıqlar verilib.

# "Azərbaycana baxış: siyasi maraqlar media müstəvisində" mövzusunda dəyirmi masa keçirilib



Mayın 21-də Bakıda "Azərbaycana baxış: siyasi maraqlar media müstəvisində" mövzusunda dəyirmi masa keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə keçirilən dəyirmi masada çıxış edən Şuranın sədri, Milli Məclisin deputatı Əflatun Amaşov tədbirin mahiyyətindən danışıb. Bildirib ki, UEFA Avropa Liqasının finalının Bakı Olimpiya Stadionunda keçirilməsi ilə bağlı İngiltərə mediasında süni ajiotaj yaradılıb. Azərbaycanın istər siyasi, istər nüfuzlu beynəlxalq idman tədbirlərinə ev sahibliyi etməsini gözü götürməyən qüvvələrin milyonların böyük həyəcanla gözlədiyi Avroliqanın finalını hədəf seçməsi böyük təəssüf doğurur.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, Mətbuat Şurasının idarə heyətinin üzü - "Teleqraf holdinq"in rəhbəri Aynur Camalqızı, Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, siyasi şərhçi Azər Həsrət, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli İngiltərə mediasında yaranan bu ajiotajın qərəzli olduğunu bildiriblər. Qeyd edilib ki, Azərbaycan bütün dünyada sabitlik adası kimi tanınır. Ölkəmiz bir çox beynəlxalq idman tədbirlərinə uğurla ev sahibliyi edir. Belə mötəbər tədbirlərin Azərbaycanın dünyada tanıdılması və təbliği baxımından böyük əhəmiyyət daşıdığını vurğulayan çıxışçılar deyiblər ki, bu cür qərəzli yanaşmalar ölkəmizin bütün sahələrdə inkişafını gözü götürməyən qüvvələrin işidir. Hər bir azərbaycanlı buna qəti etirazını bildirməlidir.

# Gəncədə "Azərbaycançılıq ideologiyası" və "Terrorçuluğa qarşı mübarizədə ictimaiyyətin rolu" mövzularında konfrans keçirilib









Mayın 21-də Gəncədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Beynəlxalq Antiterror Təlim Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycançılıq ideologiyası" və "Terrorçuluğa qarşı mübarizədə ictimaiyyətin rolu" mövzularında konfrans keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, DTX-nin məsul əməkdaşlarının, Gəncə Şəhər İcra Hakimiyyətinin, idarə, təşkilat və müəssisələrin təmsilçilərinin, həmçinin geniş ictimaiyyətin nümayəndələrinin iştirakı ilə keçirilən tədbir Heydər Əliyev Mərkəzində təşkil edilib.

Əvvəlcə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini yad edərək, abidəsi önünə gül dəstələri düzüblər.

Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsi də yad olunub.

Dövlət Himninin səsləndirilməsi ilə tədbir açıq elan edilib.

DTX-nin Beynəlxalq Antiterror Təlim Mərkəzinin rəisi Rəşad Camalov çıxış edərək bildirib ki, bugünkü konfransın keçirilməsində məqsəd adından da göründüyü kimi, azərbaycançılıq ideologiyasının təbliği və terrorçuluğa qarşı mübarizədə ictimaiyyətin rolunun artırılmasından ibarətdir. O, diqqətə çatdırıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin apardığı məqsədyönlü və praqmatik siyasət nəticəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sistemində öz layiqli yerini tutub və xarici tərəfdaşlar arasında böyük nüfuz qazanıb.

Tədbirdə çıxış edən DTX-nin əməkdaşı, tarixçi-tədqiqatçı Elsevər Məmmədov "Ümummilli Lider Heydər Əliyev və Azərbaycançılıq ideologiyası" mövzusunda məruzəsində bildirib ki, Azərbaycanın taleyinin həll olunduğu ən ağır və faciəli günlərdə dahi rəhbərin Öz xalqının israrlı və təkidli tələbləri ilə yenidən hakimiyyətə qayıtması ölkəmizin tarixində həqiqətən də dönüş nöqtəsi, qurtuluş anı olmuşdur. Həmin gündən etibarən Ulu Öndər Heydər Əliyevin misilsiz və ölçüyəgəlməz xidmətləri nəticəsində Azərbaycan hərtərəfli inkişaf və tərəqqi yoluna qədəm qoyub, respublikamız beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Qədirbilən Azərbaycan xalqı dahi şəxsiyyət Heydər Əliyevi hədsiz məhəbbətlə sevir və Onun xatirəsini daim uca tutur. Nə qədər ki, müstəqil Azərbaycan var, Heydər Əliyev də var olacaqdır. Azərbaycanın müstəqilliyi isə Ümummilli Liderin sözləri ilə desək "əbədi, daimi və dönməzdir".

Diqqətə çatdırılıb ki, bu gün müasir Azərbaycan inamla inkişaf edir, yeni-yeni möhtəşəm nailiyyətlərə imza atır, durmadan uğurlara doğru irəliləyir. Bu yol dahi rəhbər Heydər Əliyevin müəyyənləşdirdiyi azərbaycançılıq, tərəqqi və inkişaf yoludur. Ümummilli Liderin siyasi irsinin layiqli davamçısı, Prezident İlham Əliyevin müdrik, xalqımızın maraqlarını, tərəqqisini və təhlükəsizliyini etibarlı təmin edən uzaqgörən və qətiyyətli siyasəti nəticəsində Azərbaycanda milli həmrəylik günbəgün daha da möhkəmlənir, respublikamız bütün sahələrdə dinamik inkişaf edir, əhalinin sosial rifahı gündən-günə yaxşılaşır, etibarlı tərəfdaş və sabit ölkə kimi dövlətimizin nüfuzu durmadan artır.

Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşı Tural Məmmədov çıxış edərək bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd azərbaycançılıq ideologiyasının dərindən aşılanması, gənclərimizin vətənpərvərlik və dövlətçilik ruhunda tərbiyə olunması, eləcə də müasir dünyanın təhlükəsizliyini ciddi təhdid edən terrorizmə və radikallaşmaya qarşı mübarizədə ictimaiyyətin rolunu artırmaq, bu istiqamətdə Azərbaycan Respublikasının həyata keçirdiyi tədbirlər haqqında konfrans iştirakçılarına ətraflı məlumat verməkdir.

Milli təhlükəsizlik və mənafelər əleyhinə yönəlmiş təhlükələrlə, xüsusilə terrorizm və ekstremizmlə mübarizədə Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə aidiyyəti dövlət və hüquq mühafizə orqanlarının səmərəli birgə fəaliyyət göstərdiklərini deyən Tural Məmmədov radikalizm meyillərinin əvvəlcədən müəyyən olunması və onlara qarşı profilaktik tədbirlərin həyata keçirilməsi üçün cəmiyyətin yaxından iştirakının vacibliyini qeyd edib. O, belə ictimai dəstəyin Azərbaycanda dayanıqlı sabitliyin, təhlükəsizliyin və əmin-amanlığın qorunub saxlanması üçün zəruri olduğunu vurğulayıb.

Bildirilib ki, müasir dövrdə terrorçuluq bütün dövlətlər üçün təhlükə mənbəyidir. Azərbaycan Respublikası terrordan ciddi zərər çəkmiş ölkələrdən biridir. Belə ki, yalnız Ermənistan tərəfindən ölkəmizə qarşı 373, o cümlədən nəqliyyat və kommunikasiya obyektlərində 32 terror aktı törədilib, 2000-dən artıq mülki şəxs həlak və əlil olub.

Terrorçuluqla mübarizə tədbirləri haqqında danışan Tural Məmmədov qeyd edib ki, bu sahədə hüquqi, rejim mühafizə, əməliyyat-axtarış və profilaktiki tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu sahədə mübarizə insan hüquq və azadlıqları, cəmiyyət və dövlətin təhlükəsizliyinin təmin edilməsi, terrorçuluğun aşkarlanması, qarşısının alınması, terrorçuluğun yaranmasının, maliyyələşdirilməsinin, ona digər yardımların göstərilməsinin qarşısının alınması məqsədilə həyata keçirilir. Terrorçu və ekstremist təşkilatların əlaqəsindən və şəbəkələşməsindən danışan DTX əməkdaşı bildirib ki, bu gün müxtəlif cərəyanlara mənsub terrorçu və ekstremist təşkilatlar bir-biri ilə sıx əlaqə saxlayırlar. Siyasi və dini ekstremizm, təcavüzkar separatçılıq, qloballaşma əleyhinə hərəkət, sağ və sol radikalizm və sair eyni terror zəncirinin həlqələri olub, terrorçuluq fəaliyyətinin müxtəlif sahələrində bir-birini tamamlayır. Məruzədə, həmçinin terrorizmin beynəlxalq coğrafiyası, DTX tərəfindən həyata keçirilən antiterror əməliyyatları, beynəlxalq terrorçuluqla və dini ekstremizmlə mübarizə tədbirləri istiqamətində ardıcıl görülən işlər barədə məlumat verilib.

Konfransda Qafqaz Siyasi Analiz Mərkəzinin rəhbəri Əhməd Əlili radikallaşma səbəbləri və radikallaşmaya aparan yollar haqqında təqdimatla çıxış edib. Həmçinin DTX əməkdaşı Arif Cəfərov "Vətəndaşların terror fəaliyyətinə cəlb olunmasına qarşı mübarizənin xüsusiyyətləri", Hüquq elmləri üzrə fəlsəfə doktoru Bəxtiyar Əliyev "Terrorçuluq cinayətinin anlayışı, təsnifatı və cinayət məsuliyyətinin yaranması xüsusiyyətləri" mövzusunda məruzələrlə çıxış ediblər.

# UNEC tələbələrinə innovativ və operativ xidmət: "Bir pəncərə"






UNEC-də tələbələr üçün "Bir pəncərə" xidməti tətbiq olunacaq.

Layihənin məqsədi tələbələrə vahid mərkəzə müraciət edərək təhsil haqqında arayışları, transkriptləri, eləcə də digər sənədləri qısa müddətdə əldə etməklərinə şərait yaratmaqdır. Eyni zamanda məqsəd tələbələrin məmnunluğunu təmin etmək, onların əlavə vaxt itkisinin qarşısını almaq, müraciətlərin idarə olunmasına nəzarəti daha da gücləndirməkdən ibarətdir.

"Bir pəncərə" vasitəsilə tələbələr onlara lazım olan təhsil arayışının hazırlanması üçün şəxsi elektron kabinetlərindən günün 24 saatı sistemə müraciət edə bilərlər. Hazır sənəd sonra elektron formada tələbənin şəxsi kabinetinə göndərilir. Pilot layihə kimi aprel ayından start verilən "Bir pəncərə" sistemi ilk olaraq Maliyyə və mühasibat fakültəsində tətbiq olunub. Bir ay ərzində fakültənin 400-ə yaxın tələbəsinin müraciəti operativ cavablandırılıb və tələbələr lazım olan sənədi qısa müddətdə əldə ediblər.

UNEC-in rektoru, professor Ədalət Muradov və müvafiq struktur rəhbərlərinin iştirak etdiyi "Bir pəncərə" sisteminin təqdimatında layihənin uğurla tətbiq olunduğu bildirilib. Dünyanın aparıcı universitetlərinin təcrübəsi əsasında hazırlanan "Bir pəncərə" sisteminin yeni tədris ilindən UNEC-in bütün fakültələrində tətbiq olunacağı qeyd edilib.

# AFFA: Azərbaycan UEFA-nın tələb etdiyi bütün lazımi zəmanətləri verib




Henrix Mxitaryanın UEFA Avropa Liqasının Bakıda keçiriləcək final matçında "Çelsi"yə qarşı keçiriləcək oyunda iştirak üçün komandası ilə gəlməyəcəyi barədə "Arsenal" klubunundan bəyatından məyusuq.

Publika.az xəbər verir ki, bu barədə AFFA-nın yaydığı açıqlamada deyilir.

**"Növbəti həftənin çərşənbə günü UEFA Avropa Liqasının final oyununda "Çelsi" ilə qarşılaşacaq "Arsenal" komandasının futbolçusu Henrix Mxitaryanın Bakıya gəlməməsi ilə bağlı klubun açıqlaması, anladığımız qədər "Arsenal", futbolçu və onun ailəsi tərəfindən kollektiv şəkildə verilmiş bu əsaslandırılmamış qərar bizi təəssüfləndirdi.**

**Futbolçunun ölkəmizə gəlməməklə bağlı şəxsi qərarını anlasaq da, bir daha bildiririk ki, UEFA-nın tələblərinə uyğun olaraq, Azərbaycan finalın ev sahibi kimi Mxitaryanın şəxsi təhlükəsizliyinin təmin olunmasına zəmanət verdi. Azərbaycan tərəfinin verdiyi zəmanətin ciddiliyini şübhə altına salmaq üçün heç bir səbəb yoxdur. Ötən illər ərzində Azərbaycan öz ərazisində keçirilmiş beynəlxalq idman tədbirlərində çoxsaylı erməni əsilli idmançıların problemsiz iştirakını təmin edib.**

**Nəhayət, hesab edirik ki, bu təəssüf doğuran açıqlama səbirsizliklə gözlədiyimiz final oyununun keyfiyyətinə və möhtəşəmliyinə heç bir şəkildə mənfi təsir göstərməyəcək. Tezliklə Bakıya təşrif buyuracaq hər iki komandanı qarşılamağa tam hazırıq"**, - açıqlamada qeyd edilib.

Xatırladaq ki, "Arsenal" klubu erməni futbolçu Henrix Mxitaryanı Bakıya gətirməyəcəyi barədə rəsmi açıqlama yayıb.

"Arsenal" klubunun baş məşqçisi Unai Emeri isə keçirdiyi mətbuat konfransında deyib ki, bu çox şəxsi bir məsələdir və Henrix Mxitaryanın şəxsi qərarıdır.

Mətbuat konfransında Azərbaycan hökumətinin Mxitaryanın Bakıda təhlükəsizliyinə təminat verildiyi qeyd olunub.

İspaniyalı mütəxəssis bildirib ki, təhlükəsizliklə bağlı təminata inanır: **"Mən onlara inanıram. Ancaq bu səhər Mxitaryanla da danışdım. Bu şəxsi qərardır. Mən ona hörmət edirəm. Onun bizimlə olmasını istəyərdim. Onun ailəsi və özüylə danışıldıqdan sonra belə bir qərar verildi. Onu özümüzlə gəlməyə məcbur edə bilmərəm. Çünki mən ona və qərarlarına hörmət edirəm. Bu mənim əlimdən gələn bir şey deyil".**

Qeyd edək ki, Avropa Liqasının Bakıda keçiriləcək finalında "Arsenal" "Çelsi" ilə oynayacaq. Matç mayın 29-da Bakı Olimpiya Stadionunda baş tutacaq.

# Milli Məclisin deputatları Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində olublar





Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, bu ölkədə səfərdə olan Azərbaycan Milli Məclisinin deputatları Elman Nəsirov və Aydın Hüseynov, həmçinin Rusiyada yaşayan iş adamı Füzuli Məmmədov Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin mərkəzin qarşısındakı abidəsi ziyarət olunub, önünə əklil və gül dəstələri düzülüb.

Sonra onlar mərkəzdəki Heydər Əliyev Muzeyi və Azərbaycan Dövlətçilik Tarixi Muzeyi ilə tanış olublar, Daşkənddə Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə buraxılan kitablardan ibarət sərgiyə baxıblar.

AMM-nin direktoru Samir Abbasov mərkəzin fəaliyyəti, burada həyata keçirilən layihələr haqqında məlumat verib.

# Paytaxtın ümumi təhsil müəssisələri direktorlarının iştirakı ilə müşavirə keçirilib





Paytaxtın ümumi təhsil müəssisələri direktorlarının iştirakı ilə müşavirə keçirilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşkilatçılığı ilə keçirilən müşavirədə ümumi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühitinin təmin edilməsi, məktəblərin fəaliyyətində səmərəliliyin artırılması üçün sistemli işin aparılması və təhsil müəssisələrinin idarəetmə məsələlərindən bəhs olunub.

Müşavirədə BŞTİ-nin müdiri Rəşad Tağıyev, idarənin struktur bölmə rəhbərləri və ümumi təhsil müəssisələrinin direktorları iştirak ediblər.

İdarə müdiri müşavirə iştirakçılarını salamlayaraq, təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühitinin təmin edilməsi üzrə əlavə tədbirlər barədə Fəaliyyət Planı"nda nəzərdə tutulmuş həlli vacib məsələlərdən və ümumi təhsil müəssisələrinin qarşısında duran prioritet istiqamətlərdən danışıb.

R.Tağıyev ümumi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühitinin yaradılması, şagirdlərin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, tərbiyə işinin, məktəb-ailə münasibətlərinin düzgün tənzimlənməsi, xüsusi hallarla bağlı davranış modellərinin formalaşdırılması sahəsində kompleks tədbirlərin həyata keçirilməsi, təlim-tərbiyə prosesinin keyfiyyəti, şagirdlərin şəxsiyyət kimi formalaşdırılması, məktəblərdə psixoloji xidmət və sağlam psixoloji mühitin rolu, xüsusi hallarda kommunikasiyanın təşkili barədə geniş məlumat verib. Həmçinin təhsil müəssisələrinin idarəedilməsi işinin təkmilləşdirilməsi, yeni layihələrin icrası, məktəblərin ictimai nüfuzunun artırılması və digər müvafiq məsələlərə də toxunub.

Təhsilin bütün meyarlar üzrə müasir tələblər səviyyəsinə qaldırılmasının və səmərəli idarəetmənin rolunun artırılmasının əsas hədəflərdən biri olduğunu xatırladan idarə müdiri məktəb direktorlarının üzərlərinə düşən məsuliyyətin düzgün dəyərləndirilməsinin vacib olduğunu vurğulayıb.

Görüşdə məktəblərin idarəetməsi, təhsilverənlərin fəaliyyət keyfiyyətinin artırılması məsələləri, təhsil müəssisələrinin qarşılaşdığı problemlər, müəllim-şagird və müəllim-valideyn münasibətlərinin tənzimlənməsi, ictimaiyyətlə əlaqə işinin səmərəliliyinin artırılması kimi məsələlər də müzakirə olunub, məktəb direktorlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

Daha sonra təhsil müəssisələrinin rəhbərlərini maraqlandıran məsələlərə aydınlıq gətirilib və mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# Əli Kərimli fərqli fikrə qarşı dözümsüzlük nümayiş etdirir

## *Öz səhvini etiraf edən insanı "islah olunmuş mühacir" adlandıran AXCP sədri bir daha milli birliyin əleyhinə olduğunu təsdiqlədi*



Son illərdə Azərbaycanın yüksəksürətli inkişaf tempi əldə etməsi və yerləşdiyi bölgənin həm iqtisadi, həm də siyasi cəhətdən aparıcı dövlətinə çevrilməsi danılmaz bir həqiqətdir. Ölkəmizin qazandığı uğurlar, eləcə də yerləşdiyi regionun əsas siyasi-iqtisadi aktoru, ən əsası, qlobal miqyaslı layihələrin təşəbbüskarı kimi çıxış etməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yerinin göstəricisidir.

Digər tərəfdən, Azərbaycan dünyada demokratik ənənələrə hörmət göstərən, vətəndaş cəmiyyətinin inkişafını təmin edən, tolerantlıq nümunəsi sayılan ölkə olaraq tanınır. Bu uğurlar, təbii ki, Azərbaycan hökumətinin nail olduğu vətəndaş birliyinin bəhrəsidir. Məhz bu birlik, bu inam Azərbaycan hakimiyyətinin ölkənin daxili və xarici problemlərini həll etməsinə kömək edir. Bu qarşılıqlı inam, səmimiyyət isə hər zaman təqdir edilib.

Lakin Azərbaycanın bu yüksək inkişafı ölkəmizin dostlarını sevindirdiyi halda, düşmənlərini qıcıqlandırır və narahat edir. Xarici ermənipərəst mərkəzlərin sifarişlərini yerinə yetirən radikal müxalifət düşərgəsində cəmləşən siyasi təşkilatlar bu uğurlardan narahat olur, ölkəmizdəki milli birliyə xələl gətirmək üçün bütün yollara baş vururlar. Məsələn, AXCP sədri Əli Kərimli ölkədə mövcud olan dialoq və əməkdaşlıq mühitinin daha da dərinləşməsindən ciddi narahatlıq keçirir. Bunun nəticəsidir ki, son dövrlərdə sosial şəbəkələrdə müzakirə olunan "mühacirlərə açılım məsələsi" gündəmə gələn kimi o əks fəaliyyətə keçib.

Bu şəxs özlərini "mühacir" adlandıran insanların qayıdıb gəlmələrindən, yumşalmalarından, tənqidçilərin sayının azalmasından və özünün tək qalmasından qorxur. Vurğulayaq ki, bir müddət öncə xaricdə yaşayan və vaxtilə radikal mövqeyi ilə seçilən bir şəxsin öz səhvlərini etiraf etməsi radikal düşərgədə geniş müzakirə olundu və başda Ə.Kərimli olmaqla radikal ünsürlər həmin şəxsi hədəfə alaraq təhqirlər yağdırdılar. Ümumiyyətlə, qeyd olunmalıdır ki, bəzi insanların öz səhvlərini anlamaları, etiraf etmələri və üzr istəmələri yaxşı bir tendensiyanın başlanğıcıdır. Amma görünür, Əli Kərimlinin əməlləri bu məqsədlərə hesablanmayıb və bu səbəbdən də onun fəaliyyəti Azərbaycanda qarşıdurma yaratmaq istəyən anti-azərbaycançı qüvvələrin fəaliyyətləri ilə üst-üstə düşür. Səhvini etiraf etmiş insanı hədəfə almaq, onu "islah edilmiş" adlandırmaq Əli Kərimlinin bir daha hansı mədəniyyətə və siyasi simaya malik olduğunu göstərir. O, "islah olunmuş mühacir" deyəndə Emin Millinin bostanına daş atır. Amma unudur ki, az müddət öncə Emin Millini özünün ən yaxın adamı kimi qələmə verirdi.

Digər tərəfdən, Ə.Kərimlinin ermənipərəst mərkəzlərin yaxın köməyi və dəstəyi ilə qondarma "mühacir", qondarma "siyasi məhbus" məsələlərini özünün siyasi alver predmetinə çevirməsi də heç kimə sirr deyil. Bu adam cinayət törədən şəxslərin əməllərini, onların cinayət motivlərini belə heçə sayaraq ürəyi istədiyi, pulunu aldığı şəxsləri özünün "siyasi məhbus siyahısı"na salmaqla məşğuldur. Necə deyərlər, bu adamda nifrət hissi o qədər bürüyüb ki, məşhur qatil Çikatilo dirilib hakimiyyəti tənqid etsə, onu da siyasi məhbus elan edər. Bu faktın özü də Əli Kərimlinin artıq siyasi etikanın bütün mümkün sədlərini aşdığını və özünü manyak kimi apardığını göstərir.

Bəli, Ə.Kərimli bir daha özünün siyasi etikadan kənar, həmçinin fərqli fikirlərə qarşı dözümsüz olduğunu sübuta yetirdi. Hakimiyyəti siyasi dözümsüzlükdə ittiham edən Əli Kərimli niyə özünə sual vermir ki, onun ətrafında nə üçün bir nəfər fərqli düşünən insan yoxdur. Bəlkə, onları Ə.Kərimli yanında saxlamayıb? Bəli, AXCP-də fərqli düşünən insanların hamısı məhz Ə.Kərimli tərəfindən partiyadan didərgin salınıb. Ona görə də Elçibəyin dövründə olan AXCP funksionerlərindən heç biri onun yanında qalmayıb. Bu boşluğu isə reneqatlar, heç bir əxlaqı olmayan ünsürlər və zombilər doldurublar.

**Pərviz SADAYOĞLU**

# Ermənistanda baş verənlər işğalçı dövlətdə xaos və qarşıdurma yaradır

## *Son hadisələr sübut etdi ki, işsizlikdən və aclıqdan əziyyət çəkən erməni əhalisi artıq Paşinyana inanmır*



2008-ci il 1 mart hadisələri ilə bağlı bu günlərdə Yerevanda keçirilən məhkəmə iclasında sensasion hadisə baş verib. Belə ki, əsas müttəhimlərdən biri olan Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın haqqında həbs qətimkan tədbirinin dəyişdirilməsi işğalçı dövlətdə vəziyyətin daha da gərginləşməsinə səbəb olub. Baş verən hadisədən pərt olan Ermənistanın baş naziri Nikol Paşinyan isə sosial şəbəkələrə çıxaraq əhalini məhkəmələrin binalarını mühasirəyə almağa çağırıb. N.Paşinyanın planı baş tutub, bir qrup dəstəkçisi konstitusiya məhkəməsi başda olmaqla, paytaxt Yerevandakı məhkəmə binalarının qarşısına gəlib. Lakin N.Paşinyanın bu addımı heç də birmənalı qarşılanmayıb, üstəlik baş verən hadisələr bir çox mətləbləri ortaya çıxarıb.

Məlumat üçün qeyd edək ki, Dağlıq Qarabağdan gələn Bako Sahakyan və sələfi Arkadi Qukasyan şəxsən məhkəmədə iştirak edib və R.Koçaryanın azadlıqda mühakimə olunması üçün məhkəməyə vəsatət təqdim ediblər. Şəxsi zaminlik üçün onların hər biri 500 min (1000 ABŞ dolları) erməni dramı ödəyiblər. Hakim isə bu vəsatəti təmin edərək R.Koçaryanı azadlığa buraxıb. Bu gözlənilməz hadisə, birincisi, sübut etdi ki, N.Paşinyanın keçmiş hərbi xunta rejiminin liderlərini cəzalandırmaq cəhdi baş tutmayacaq, ikincisi, bu forpost ölkədə hər hansı bir qüvvə istənilən an hadisələrin məcrasını dəyişə bilər.

Digər tərəfdən, özünü "demokrat" kimi göstərən N.Paşinyanın xalqı məhkəmələrə təzyiq göstərməyə çağırması təkcə daxildə deyil, Avropada, o cümlədən Avropa Şurasının Parlament Assambleyası tərəfindən ciddi tənqid edilib. Belə ki, AŞPA-nın Ermənistan üzrə həmməruzəçiləri Yuliya Levoçkina və Andrey Şirel məhkəmə hakimiyyətinin müstəqilliyinin qanunun aliliyinin əsas şərti olduğunu N.Paşinyanın diqqətinə çatdırıblar.

Bununla yanaşı, Ermənistanda məhkəmələrin qarşısına gözləniləndən qat-qat az adamın çıxması Nikol Paşinyan üçün daha bir zərbə olub. Ermənistan mətbuatının məlumatına görə, baş nazirin məhkəmələrin fəaliyyətinə maneə törətmək çağırışına yalnız 1100 nəfər cavab verib. Bu isə N.Paşinyanın nüfuzdan düşdüyünə dəlalət edir. Düzdür, N.Paşinyan bu pərtliyi örtbasdır etmək üçün guya hədəfə nail olduqlarını bəyan edərək, sonradan aksiyanı dayandırmağa çağırıb.

Nəticədə məlum olub ki, aclıqdan və işsizlikdən əziyyət çəkən erməni cəmiyyəti N.Paşinyanın səriştəsizliyindən məyus olub. Ona görə ki, işsizlik yüksək səviyyədə olan Ermənistanda, ilk növbədə, əhali həyat səviyyəsini yüksəltmək, gəlirlərini artırmaq, yeni iş yerlərinin açılmasına dəstək istəyir. Bütün bunlar baş vermədiyi üçün sadə ermənilər artıq Paşinyandan heç nə gözləmirlər, son hadisələr də əhalinin baş nazirə və onun komandasına açıq mesaj verməsinin göstəricisidir.

Sonda qeyd edək ki, bəzi ekspertlər Dağlıq Qarabağdan gələnlərin səbəb olduğu qalmaqallı hadisənin Qarabağ erməniləri ilə Ermənistandakı ermənilər arasında qarşıdurmanı dərinləşdirəcəyini istisna etmirlər. Mütəxəssislərin qənaətinə görə, Qarabağ ermənilərinin rəsmi Yerevana qarşı müqavimət göstərməsi və açıq şəkildə R.Koçaryanı dəstəkləməsi, üstəlik onun həbsdən çıxarılması cavabsız qalmayacaq. Beləliklə, öz gərginliyini qoruyan Yerevandakı vəziyyət Ermənistanda, eləcə də işğal olunmuş Azərbaycan ərazilərində qarşıdurma və xaos vəd edir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

# Azərbaycanın bölgələrində yol infrastrukturunun yenilənməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir

*Regionlarda avtomobil yollarının tikintisi və yenidən qurulması işləri davamlı xarakter daşıyır*






Müstəqil Azərbaycanın müasir mənzərəsini səciyyələndirən ən mühüm amillər möhkəm ictimai-siyasi sabitlik və dinamik iqtisadi inkişafdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara və müasir çağırışlara uyğun həyata keçirilən uğurlu siyasət Azərbaycanın inkişaf yolunda inamla irəliləməsini təmin edib. Bu gün ölkəmizdə bütün sahələrdə olduğu kimi, regionların sosial-iqtisadi inkişafı istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir və yüksək inkişaf göstəriciləri əldə edilir. Bu kontekstdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının müvəffəqiyyətlə icra olunması nəticəsində qazanılmış nailiyyətləri də xüsusi vurğulamaq gərəkdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın bölgələrində müasir infrastrukturun yaradılması da daim diqqət mərkəzindədir. Bu kontekstdə avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində reallaşdırılan işlər də davamlı xarakter daşıyır. Yeri gəlmişkən, Prezident İlham Əliyev mayın 1-də “Ağstafa rayonunun Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb. On doqquz min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Bununla yanaşı, Prezident İlham Əliyev Quba rayonunun Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən 68 min nəfər əhalinin yaşadığı 66 yaşayış məntəqəsini birləşdirən Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 20 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Bu məqamda vurğulamaq yerinə düşər ki, Quba rayonunda 68 min nəfər əhalinin yaşadığı 66 yaşayış məntəqəsini birləşdirən Quba-Qonaqkənd avtomobil yolu yenidən qurulur. 3-cü və 4-cü texniki dərəcəyə uyğun olaraq yenidən qurulan avtomobil yolunun uzunluğu 46 kilometrdir. Müvafiq olaraq yolun torpaq yatağı 12 və 10 metr, hərəkət hissəsi isə 7 və 6 metr təşkil edir. Avtomobil yolu uzun müddət əsaslı təmir olunmadan istismar edildiyindən yolun hərəkət hissəsində əmələ gələn qabarmalar, çalalar nəqliyyat vasitələrinin hərəkəti üçün çətinliklər yaradırdı. Layihə çərçivəsində mövcud örtük sökülərək kənara daşınıb, yararsız qruntun qazılaraq çıxarılması, əvəzinə yararlı material tökülərək kipləşdirilməsi işləri görülüb, bəzi yerlərdə yolun normativ eninin alınması üçün dağ yamaclarının qaya tipli süxurları kəsilərək çıxarılıb və torpaq yatağı genişləndirilərək tələb olunan hündürlüyə qaldırılıb, lazımi yerlərə suötürücü boruların quraşdırılması çərçivəsində 46 ədəd müxtəlif diametrli metal, azbest və dəmir-beton suötürücü borular quraşdırılaraq izolyasiya olunub. Hazırda Quba-Qonaqkənd avtomobil yolunda əsasın tikintisi və asfalt-beton örtüyün salınması işləri həyata keçirilir. Bunun üçün 450 min kvadratmetr sahədə əsasın alt və üst layı müvafiq olaraq 45 və 16 santimetr hündürlükdə qum qırmadaş və optimal qum-çınqıl qarışığı ilə tikilir. Yolboyu əsasın alt layının tikintisi yekunlaşmaq üzrədir. Yolun 24 kilometrlik hissəsində isə hər iki layın tikintisi işləri yekunlaşdırılaraq asfaltlanma işlərinə başlanılıb. Əlaqələndirici bitum səpilməklə yola iri və xırda dənəli asfalt-beton qarışığından örtük salınır. Artıq yolun 12 kilometrlik hissəsinin asfaltlanması işləri bitib. Hazırda digər 12 kilometrlik hissədə işlər aparılır. Yolboyu mövcud küvetlər tam dolduğu üçün, həmçinin yolun yuxarı maillik olan hissələrində atmosfer sularının istiqamətləndirilməsi üçün 5 min poqonmetr uzunluğunda yeni dəmir-beton küvetlər inşa olunur, avtonəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə istinad divarları tiklir, təhlükəli yerlərdə yol kənarına dəmir-beton qoruyucu bloklar düzülür. Layihə çərçivəsində yolun 35, 36 və 41-ci kilometrlik hissəsində kiçik dağ çayları üzərində hər birinin uzunluğu 26 və 27 metr olan biraşırımlı 3 körpü inşa edilib. Hazırda yolun 43 və 46-cı kilometrlik hissəsində Babaçay və Cimiçay üzərində yeni körpülər inşa olunur. Babaçay üzərindən salınan körpünün uzunluğu 126 metr, Cimiçay üzərindəki körpünün uzunluğu isə 80 metrdir. Hər iki körpünün ətrafında müvafiq olaraq 280 və 160 metr uzunluğunda su nizamlayıcı və sahil bərkidici dəmir-beton istinad divarları tikilir. Yolun yenidən qurulması əhalinin gediş-gəlişini asanlaşdırmaqla yanaşı, həm də onların tədarük etdikləri kənd təsərrüfatı məhsullarını və meyvə-tərəvəzi qısa vaxtda istədikləri ünvanlara çatdırmağa imkan yaradacaq. Bu yolun çəkilişinin Quba rayonunun turizm imkanlarını genişləndirəcəyi gözlənilir.

Digər tərəfdən, Tovuz-Böyük Qışlaq-Qaralar və Tovuz-Qovlar-Ağbaşlar avtomobil yollarının əsaslı təmiri isə bu rayonda yol infrastrukturunun müasirləşməsinə və əhalinin asan gediş-gəlişinə səbəb olmaqla yanaşı, kütləvi turist axınına da şərait yaradıb. Bu ilin ilk rübündə həmçinin uzunluğu 31,9 kilometr olan Əsrik Cırdaxan-Kirən-Baqqallı avtomobil yolunun tikintisi başa çatıb. Hazırda rayonda yol infrastrukturunun yenilənməsi işləri davam etdirilir. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramında yerli əhəmiyyətli avtomobil yollarının, eləcə də kəndlərarası avtomobil yollarının tikintisinin, yenidən qurulmasının və əsaslı təmirinin davam etdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin “Tovuz rayonunun Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2019-cu il 15 fevral tarixli Sərəncamı ilə tikinti işlərinə vəsait ayrılıb. Cari ildə 7 dağ kəndini rayon mərkəzi ilə birləşdirən bu yolun tikintisi də davam etdiriləcək.

Samux rayonunda isə Yenikənd-Köbər-Qaraağaclı avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib. Açılış mərasimində rayon rəhbərliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məsul işçiləri, rayon sakinləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Bu yol ümumi əhalisi 4409 nəfər olan Yenikənd, Köbər və Qaraağaclı yaşayış məntəqələrini birləşdirir. Avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yolun üzərində Qanlı qobu deyilən ərazidə sel sularının axıdılması üçün dəmir-beton konstruksiyalı və 18 metr uzunluğunda yeni körpü inşa edilib. Yol üzərində borular vasitəsilə 144 ədəd suötürücüsü yerləşdirilib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məsul işçisi Əvəz Qocayev çıxış edərək bildirib ki, respublikamızın hər bir rayonunda olduğu kimi, Samux rayonunda da yol infrastrukturu yenilənir və bu iş bundan sonra daha geniş şəkildə davam etdiriləcək. Qeyd edək ki, Prezident İlham Əliyevin 2018-ci il 4 avqust tarixli Sərəncamı ilə yolun tikintisinə 4 milyon manat ayrılmışdı.

Bunlarla yanaşı, Xaçmazda 3 min nəfərdən çox əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun əsaslı təmirinə başlanılıb. 11 kilometr uzunluğundakı yolun yenidən qurulması Çinartala, Manafoba, Ağaşirinoba və Qıraqlı kənd sakinlərinin rayon mərkəzinə gediş-gəlişini rahatlaşdıracaq. Uzun illərdir təmir işləri aparılmadığından torpaq və çınqıl örtüklü yolda avtomobillərin hərəkəti üçün bir sıra çətinliklər yaranırdı. Təmir işləri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yerli qurumu tərəfindən həyata keçirilir. Tikinti layihəsinə uyğun olaraq yeni yol əsası inşa edilir. İşlərin ilkin mərhələsi başa çatdıqdan sonra yolun asfaltlanması işləri aparılacaq. Başlanğıcını respublika əhəmiyyətli Gəndob-Yalama yolundan götürən Çinartala-Qıraqlı avtomobil yolunun təmiri may ayı ərzində başa çatdırılacaq. Yolun yenidən qurulması bağçılıq və əkinçiliklə məşğul olan kənd sakinlərinin məhsullarının daşınması üçün də böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən ölkə əhəmiyyətli yollarla yanaşı, yeni kənd yollarının inşası sahəsində mühüm layihələrin icrası uğurla davam edir. Hazırda Xaçmazda turizm əhəmiyyətli Xudat-Nabran avtomobil yolunun asfaltlanması və Xaçmaz-Niyazoba-Əbilyataq-Qarğalıq avtomobil yolunun yenidən qurulması işləri də sürətlə davam etdirilir.

Qusarda isə səkkiz min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisinə başlanılıb. 4-cü texniki dərəcəyə uyğun olaraq yenidən qurulan avtomobil yolunun uzunluğu 40 kilometrdir. Avtomobil yolu uzun müddət əsaslı təmir olunmadan istismar edildiyindən yolun hərəkət hissəsində əmələ gələn qabarmalar, çalalar nəqliyyat vasitələrinin hərəkəti üçün çətinliklər yaradırdı. Hazırda yeni yol yatağının inşası işləri həyata keçirilir. Yolun eni 10 metrə qədər genişləndirilir. Yeni tikilən yola iyun ayında asfalt döşənməsi nəzərdə tutulub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan yenidənqurma işləri mövcud tikinti norma və standartlarına uyğun, texnoloji ardıcıllıqla və yüksək keyfiyyətlə həyata keçirilir. İşlərin vaxtında başa çatdırılması üçün ərazidə lazımi sayda canlı qüvvə və texnika çalışır. Qusar rayonunun Cibir-Həzrə-Mucuq-Sudur avtomobil yolunun tikintisi Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən həyata keçirilir. Yolun tikintisi üçün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrılıb.

Bütövlükdə, Azərbaycanın bölgələrində yol infrastrukturunun yenilənməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər davamlı xarakter daşıyır.

**Nurlan QƏLƏNDƏRLİ**

# Heydər Əliyev Mərkəzində Zurab Seretelinin sərgisi açılacaq




Mayın 22-də Heydər Əliyev Mərkəzində tanınmış rəssam Zurab Seretelinin “Mümkün ölçülər” (Possible Dimensions) adlı sərgisi açılacaq.

Heydər Əliyev Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Moskva Müasir İncəsənət Muzeyi və Rusiya Rəssamlıq Akademiyası ilə birgə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihə müəllifin 85 illik yubileyinə həsr olunmuş sərgilər seriyasının davamıdır. Ekspozisiyada Moskva, Tbilisi və Londondan gətirilmiş 30-dan çox əsər - rəssamın yaradıcılıq yolunu əks etdirən rəsmlər və heykəllər nümayiş olunacaq.

Zurab Sereteli 1934-cü ildə Tbilisidə anadan olub. 1958-ci ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasını bitirib. 1960-cı illərin sonlarında geniş dairədə tanınmağa, dövlət sifarişləri almağa başlayıb. Monumentallıq onun müxtəlif ölkələrdə ictimai sifarişlər əsasında yaratdığı heykəllərdə də diqqəti çəkir. Z.Seretelinin müəllifi olduğu möhtəşəm heykəllər London, Moskva, Nyu-York, Paris, Roma, Tokio və digər şəhərlərdə ucaldılıb.

Z.Seretelini dünya vətəndaşı adlandırmaq olar. Onun emalatxanaları doğulduğu Tbilisi şəhərində, Moskva, Paris və Nyu-Yorkda yerləşir. Bu dörd şəhərin hər birində işləmək onun fərdi üslubunun formalaşmasına səbəb olub. Rəssamın sözlərinə görə, 1946-cı ildə Fransada Pablo Pikasso və Mark Şaqalla görüşü onun yaradıcılıq prosesinə baxışlarını köklü surətdə dəyişib. Ustadların rəssamlıq və qrafikadan keramika və heykəltəraşlığa asanlıqla keçmələri onu yeni əsərlər seriyası yaratmağa ilhamlandırıb. Parisdə Pikassonun emalatxanasını ziyarət etdikdən az sonra çəkdiyi “İnessa” (1968) əsərində onun təsiri aydın nəzərə çarpır. Z.Seretelinin “Mənim sevimli rəssamlarım” (2009) adlı məşhur heykəli Pablo Pikasso, Amedeo Modilyani, Mark Şaqal və Vinsent Van Qoqu təsvir edir, bundan bir il əvvəl isə o, Niko Pirosmani və Anri Russonun heykəltəraşlıq obrazlarını yaradıb.

Z.Seretelinin yaradıcılığına rus rəssamları da təsir göstərib. Vasili Kandinskinin abstrakt ekspressionizmi və ya Kazimir Maleviçin suprematizmi Seretelinin tanınan qırmızı və göy boyalarının zəngin palitrasına transformasiya edib.

Heydər Əliyev Mərkəzində nümayiş olunan sərgi avqustun 25-dək davam edəcək.

# Lisey və gimnaziyalara qəbulla bağlı müsahibə başlayıb

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
BAKI ŞƏHƏRİ ÜZRƏ
TƏHSİL İDARƏSİ

Mayın 21-dən 2019-2020-ci tədris ilində lisey və gimnaziyaların müəyyənləşdirilmiş ərazisində yaşayan vətəndaşların övladlarının tədris digər dildə aparılan bölmələrinə I sinfə qəbul zamanı uşaqların şifahi nitq bacarıqlarının qiymətləndirilməsi ilə bağlı Müsahibə komissiyası fəaliyyətə başlayıb.

Belə ki, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalar, eləcə də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 160 nömrəli Klassik Gimnaziyanın müəyyənləşdirilmiş ərazisində yaşayan vətəndaşların övladlarının tədris digər dildə aparılan bölmələrinə I sinfə qəbul üzrə Müsahibə komissiyası 12 nömrəli tam orta məktəbdə fəaliyyət göstərir.

Qeyd edək ki, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyalar, eləcə də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 160 nömrəli Klassik Gimnaziyaya I sinfə qəbul üzrə tədris digər dildə aparılan bölmələrinə elektron ərizələrin qeydiyyatı mayın 20-də başa çatıb. Martın 13-dən mayın 20-dək davam edən proses çərçivəsində qeyd olunan ümumi təhsil müəssisələrinə 3426 elektron sorğu yerləşdirilib. Bu sorğulardan 1132-si təlim dili Azərbaycan dili seçildiyi üçün həmin uşaqlar lisey və gimnaziyalara müsabiqədənkənar qəbul olunublar. Lisey və gimnaziyanın ərazisində yaşayan, ancaq digər dildə tədris aparılan bölmə üzrə sorğu yerləşdirənlər isə müvafiq liseyə yerləşdirdiyi sorğusu təsdiqləndikdən sonra, uşaq şifahi nitq bacarıqlarının qiymətləndirilməsindən uğurla keçərsə, həmin liseyə qəbul olunmuş hesab ediləcək. Uşaq digər dildə tədris aparılan bölmə üzrə şifahi nitq bacarıqlarının qiymətləndirilməsi zamanı uğur qazanmadıqda valideynlər həmin lisey və gimnaziyaların yalnız Azərbaycan bölməsinə sorğu yerləşdirə bilərlər.

Bakı Avropa Liseyi, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına Orta İxtisas Musiqi Məktəbini seçən valideynlərin (qanuni nümayəndələrin) uşaqlarının qəbulu yalnız müsabiqə yolu ilə aparılır.

Ümumilikdə, martın 13-dən ötən müddətdə I sinfə qəbul üzrə 44 536 uşaq elektron qeydiyyatdan keçib. Bu isə paytaxt üzrə I sinfə şagird qəbulu proqnozunun 90 faizinə yaxın göstəricidir. I sinfə şagird qəbulu prosesinin 15 sentyabra kimi davam edəcəyini nəzərə alsaq, təkcə bu rəqəmin özü prosesin nə qədər səmərəli olduğunu deməyə əsas verir.

# İdman jurnalistikası magistr proqramına müraciət üçün qeydiyyat davam edir



Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ingilisdilli idman jurnalistikası magistr proqramına 2019-2020-ci akademik dərs ili üçün qeydiyyat davam edir.

Akademiyadan AZƏRTAC-a bildiriblər ki, idman jurnalistikası magistr ixtisasının yaradılmasında əsas məqsəd bu sahədə beynəlxalq səviyyədə rəqabətədavamlı kadrların yetişdirilməsidir. Proqrama maraq nəzərə alınaraq, magistr imtahanının birinci mərhələsindən minimum 30 bal toplayan və ingilis dili bilikləri yüksək olan namizədlər iyunun 1-dək idman jurnalistikası magistr proqramına qəbul üçün müraciət edə bilərlər. Bunun üçün namizədlərdən onlayn qeydiyyat formasını (https://bit.ly/2IwlPWL) doldurmaq tələb olunur.

Magistr proqramına qəbul imtahanının ikinci mərhələsi Akademiya tərəfindən müsahibə formatında həyata keçiriləcək.

Təhsil proqramı Böyük Britaniyanın Şeffild Hallam Universiteti ilə əməkdaşlıq çərçivəsində hazırlanıb. İdman jurnalistikası proqramına media sahəsində tanınmış beynəlxalq ekspert Dan Mason rəhbərlik edir. Tədris prosesi beynəlxalq təcrübəyə malik yerli və ya xarici mütəxəssislər tərəfindən ingilis dilində həyata keçirilir.

Bu ixtisasa qəbul olan namizədlər xüsusi yaradılan Multimedia Mərkəzində PR, audio və video, onlayn media sahəsində peşəkar bacarıqlara yiyələnir, beynəlxalq idman yarışlarına, nüfuzlu tədbirlərə media təmsilçisi qismində qatılmaq imkanı qazanırlar.

İdman jurnalistikası ixtisasına qəbul olunan magistrlər proqram çərçivəsində Böyük Britaniyaya səfər etmək, BBC kimi nüfuzlu media orqanında təcrübə mübadiləsində iştirak etmək, əsas təlim modullardan birini Şeffild Hallam Universitetində keçmək imkanı qazanırlar.

Əlavə məlumatı https://www.facebook.com/asapesmedia səhifəsindən öyrənmək mümkündür.

# Azercell şirkəti “Optimal Elektronika” MMC-nin yeni rəqəmsal tərəfdaşıdır

Azercell şirkəti 71-dən çox pərakəndə satış nöqtəsinə sahib olan və Azərbaycanın elektronika sahəsində aparıcı pərakəndə satış şirkətlərindən biri olan “Optimal Elektronika” MMC ilə yeni müqavilə imzalayaraq, şirkətin rabitə tərəfdaşı olduğu haqqında məlumatı yayımlayır.

Sövdələşməyə əsasən Azercell-in müasir mobil şəbəkəsi üzərindən internet və danışıq xidmətlərindən yararlanmaqla yanaşı, həmçinin “Optimal Elektronika” MMC-yə şirkətin yenilənmiş, idarəedilən rəqəmsal marketinq xidmətləri vasitəsilə öz rabitə xərclərinə nəzarət etmək, onları öncədən təyin etmək və eyni zamanda alıcılarına ən yaxşı müştəri təcrübəsini yaşatmaq fürsətini təklif edir.

**“Mən bu razılaşmanı şirkətimizin iş planlarına əsasən iş prosesinin sadələşdirilməsi, əməliyyat effektivliyinin artırılması və əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm bir addım kimi görürəm. Mürəkkəbliyin azaldılması bizim inkişaf strategiyamızın əsas hissəsidir. Məhsuldarlığı və effektivliyi davamlı olaraq təkmilləşdirməklə, biz müştərilərin ehtiyaclarını daha yaxşı qarşılaya bilərik. Bizim şirkətimizin gələcək inkişafını dəstəkləmək üçün düzgün rabitə platforması təqdim edən Azercell-lə iş birliyindən məmnunam”,** - deyə “Optimal Elektronika” şirkətinin direktoru Əhəd Əsgərov bildirib.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820

“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU